

ƏDLİYYƏ

# QANUNÇULUQ

## HÜQUQ JURNALI

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı




№ 7 - iyul 2018

*Azərbaycanın tutduğu yol müstəqil Azərbaycan Respublikası, demokratik hüquqi cəmiyyət qurmaq yoludur!*

*Heydər ƏLİYEV,*
*Azərbaycan xalqının ümummilli lideri*



***Ölkəmizin hərtərəfli inkişafı üçün, demokratik, hüquqi dövlətin əsaslarının möhkəmlənməsi üçün məhkəmə-hüquq sisteminin təkmilləşməsi başlıca şərtdir***

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***



QANUNÇULUQ

HÜQUQ JURNALI

№ 07 İYUL 2018

TƏSİSÇİ:
**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi**

BAŞ REDAKTOR:
**Fikrət Məmmədov**

REDAKSİYA HEYƏTİ:
**Fuad Ələsgərov**
**Toğrul Musayev**
**Azər Cəfərov**
**Adil Əliyev**
**Faiq Qurbanov**
**Fuad Cavadov**
**Cavid Hüseynov**
**Elçin Xələfov**

BURAXILIŞA MƏSUL:
**Rasim Həsənov**

**(012) 539-76-75**



**Qaynar xətt**

Qeydiyyat tarixi: 18.04.2003,
Reyestr №-si: 439. İndeks 1032

“Qanunçuluq” jurnalı redaksiyasının kompüter mərkəzində yığılıb səhifələnmiş,
“Ədliyyə Nəşriyyat Evi” MMC-də çap olunmuşdur.
Ədliyyə Nəşriyyat Evi MMC-nin ünvanı: Xaqani küç., 14,
tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri:
“Ədliyyə Nəşriyyat Evi” MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701;

Azərbaycan Beynəlxalq Bankın Səbail filialı, kod 805551,
VÖEN 9900001881, M/h 0137010002031,
SWİFT/Bik İBAZAZ-2X.

# Bu sayımızda:

## RƏSMİ MƏLUMAT

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana rəsmi səfəri ....5
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belçikaya səfəri ....7
İtaliya Prezidenti Sercio Mattarellanın Azərbaycana rəsmi səfəri ....10
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fransa Respublikasına səfəri ....14
Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin iclası keçirilib....18

## ƏDLİYYƏ NAZİRLİYİNDƏ

Ədliyyə Nazirliyinin Kollegiya iclaslarında ....20
Avropa İttifaqı və Şərq Tərəfdaşlığı ölkələri ədliyyə və daxili işlər nazirlərinin görüşü keçirilib....23
Aİ və Şərq Tərəfdaşlığı ölkələrinin ədliyyə və daxili işlər nazirlərinin ”Qanunun aliliyinin təşviqi və dürüstlüyünün stimullaşdırılması: məhkəmə və təhlükəsizlik orqanlarında korrupsiyaya qarşı mübarizə” mövzusunda keçirilmiş görüşündə Azərbaycan Respublikasının ədliyyə naziri Fikrət Məmmədovun çıxışı ....24
Azərbaycan və Latviya arasında hüquqi əlaqələr inkişaf edir ....26
Səudiyyə Ərəbistanı ilə ədliyyə sahəsində əməkdaşlıq genişlənir ....27
Bakıda Konstitusiya Məhkəməsinin yaradılmasının 20 illik yubileyinə həsr olunan beynəlxalq konfrans keçirilib ....29
Ədliyyə naziri Göyçayda vətəndaşları qəbul edib ....30
İcra və Probasiya xidmətlərinin fəaliyyətinə dair müşavirə keçirilib ....31
Dünya Səhiyyə Təşkilatının baş direktoru Ədliyyə Nazirliyinin Beynəlxalq Təlim Mərkəzi ilə tanış olub ....32
Notarius korpusunun komplektləşdirilməsi məqsədilə ardıcıl tədbirlər davam etdirilir ....34
Hakimlərin Seçki Komitəsinin məlumatı....35
Yubileyə həsr olunmuş futbol turniri ....35

## YENİ QANUNLAR, FƏRMANLAR...

“Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1174-VKQD nömrəli Konstitusiya Qanunu....36
“Notariat haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1157-VQD nömrəli Qanunu....37
“Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1183-VQD nömrəli Qanunu ....37








## YENİ QANUNLAR, FƏRMANLAR...

”Siyasi partiyalar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1184-VQD nömrəli Qanunu ....38
“Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1205-VQD nömrəli Qanunu ....38
“İcra məmurları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1207-VQD nömrəli Qanunu ....39
“Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1221-VQD nömrəli Qanunu ....41
“Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1228-VQD nömrəli Qanunu ....44
”Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1230-VQD nömrəli Qanunu ....45
”Məhkəmə-Hüquq Şurası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1231-VQD nömrəli Qanunu ....45
“Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş ”Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 13 iyul tarixli 194 nömrəli Fərmanı ....46



# Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana rəsmi səfəri

**İyulun 10-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasında rəsmi səfərdə olub.**

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olub. Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirilib, əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə inam ifadə olunub. Söhbət zamanı ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Sonra görüş işçi nahar çərçivəsində geniş tərkibdə davam etdirilib.

Səfər zamanı dövlət başçıları mətbuata bəyanatlarla çıxış ediblər.

Azərbaycan Prezidenti İlham Əliyev çıxış edərək Prezident Rəcəb Tayyib Ərdoğanı prezident seçkilərində qazandığı inamlı qələbə münasibətilə bir daha ürəkdən təbrik edib, gələcək fəaliyyətində yeni uğurlar arzulayıb.

Seçkilərdən sonra Türkiyə Prezidentinin ilk rəsmi səfərini Azərbaycana etməsinin Türkiyə-Azərbaycan dostluğunun, qardaşlığının sarsılmaz-



*Azərbaycan və Türkiyə prezidentlərinin təkbətək görüşü*

lığını, əbədiliyini təzahür etdirdiyini söyləyən dövlətimizin başçısı Rəcəb Tayyib Ərdoğanın uzun illər ərzində qardaş ölkənin inkişafı üçün çox böyük işlər gördüyünü, onun liderliyi ilə Türkiyənin böyük və şərəfli yol keçdiyini, sabitliyin tam bərqərar edildiyini, dünya miqyasında böyük gücə çevrildiyini, iqtisadi inkişafına görə Türkiyənin dünyada ən qabaqcıl yerlərdə olduğunu vurğulayıb, Türkiyənin uğurlarının Azərbaycan xalqını da çox sevindirdiyini bildirib.

Türkiyə-Azərbaycan əlaqələrinin ən yüksək zirvədə olduğunu söyləyən dövlətimizin başçısı şəxsi dostluq əlaqələrinin mövcudluğunu, bütün məsələlərdə ölkələrimizin bir-birini daim dəstəklədiyini, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində qardaş ölkənin daim Azərbaycana böyük dəstək göstərdiyini qeyd edib.

Səfər zamanı görülmüş işlər, gələcək planlar haqqında müzakirələrin aparıldığını diqqətə çatdıran Azərbaycan Prezidenti ticarət dövriyyəsinin artırılması, qarşılıqlı sərmayə qoyuluşunun davam edəcəyi, ölkələrimiz, xalqlarımız və dünya üçün böyük əhəmiyyət daşıyan enerji layihələrinin birlikdə həyata keçirilməsi, ötən ay açılışı olmuş TANAP layihəsinə start verilməsi, "Cənub Qaz Dəhlizi" layihəsinin uğurla icrası ilə bağlı danışıb, həmçinin nəqliyyatla bağlı layihələrin əhəmiyyətini, hərbi sahədə əməkdaşlığımızın çox uğurla davam etdiyini qeyd edib.

Bildirib ki, əlaqələrimiz çoxşaxəlidir. Əlaqələrin təməlində xalqlarımızın, dövlətlərimizin birliyi, ortaq maraqları dayanır. Biz dostuq, qardaşıq.

Türkiyə dövlətinin başçısı Rəcəb Tayyib Ərdoğan isə bəyanatında seçkilərdən sonra Prezident kimi and içdikdən sonra ilk səfərini qardaş, dost Azərbaycana etmək vəzifəsini yerinə yetirmək barədə niyyətini gerçəkləşdirdiyini vurğulayıb, Azərbaycan ilə istər enerji sahəsindəki əlaqələrin, istərsə də müdafiə sənayesi istiqamətində addımların çox böyük əhəmiyyət daşıdığını qeyd edib, TANAP layihəsinin Azərbaycan-Türkiyə qardaşlığının bir təzahürü olaraq, eyni zamanda, strateji investisiya yatırılması baxımından əhəmiyyətindən bəhs edib.

Prezident Rəcəb Tayyib Ərdoğan əlaqələrimizin "Bir millət, iki dövlət" anlayışı əsasında inkişaf etdiyini və bu anlayışa bağlı olaraq əlaqələrimizin irəliyə aparmaqda davam etdiriləcəyini söyləyib, FETÖ ilə mübarizəyə Azərbaycanda dövlətimizin başçısının verdiyi dəstəyə görə təşəkkürünü bildirib.

İkitərəfli ticarət məsələsində hədəfin mövcud rəqəmin iki, üç dəfə artırmaq olduğunu deyən Türkiyə dövlətinin başçısı Dağlıq Qarabağ və Naxçıvanla bağlı problemləri aradan qaldırmaq üçün Türkiyə olaraq əlindən gələni etdiyini, Naxçıvanla ölkəsi arasında quru yolundakı problemlərin həll edildiyini, həmçinin dəmir yolu məsələsinin mümkün həlli ilə aradakı bu əlaqələrin daha yüksək səviyyəyə çatdırılmasının hər iki ölkəyə əlavə güc verəcəyini qeyd edib, səhiyyə sahəsində əməkdaşlıq imkanlarına toxunub.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevin timsalında bütün Azərbaycan xalqına öz adından və milləti adından ən səmimi hisslərlə salam, sevgi və ehtiramını ifadə edib.



*Azərbaycan və Türkiyə prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər*

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belçikaya səfəri

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev NATO-nun baş katibi Yens Stoltenberqin dəvəti ilə iyulun 11-12-də NATO-nun Zirvə toplantısında iştirak etmək üçün Belçika Krallığının paytaxtı Brüssel şəhərində səfərdə olub.**

Səfər zamanı dövlətimizin başçısı ilə Avropa İttifaqının mənzil-qərargahında Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun görüşü olub.



*Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk ilə görüş*

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında siyasi, iqtisadi, energetika, nəqliyyat və digər sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olunub, Azərbaycanın Avropanın enerji təhlükəsizliyində artan rolu və bu yaxınlarda rəsmi açılışı olan TANAP layihəsinin bu məsələdə böyük əhəmiyyəti vurğulanıb. Eyni zamanda, Azərbaycanın yerləşdiyi regiondakı vəziyyət, regional təhlükəsizlik və çağırışlar haqqında da fikir mübadiləsi aparılıb.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müzakirə olunub. Prezident İlham Əliyev münaqişənin hazırkı vəziyyəti barədə məlumat verib.



*Azərbaycan və Avropa İttifaqı arasında “Tərəfdaşlıq prioritetləri” sənədinin paraflanması*

Donald Tusk Azərbaycanın dünyəvi və müasir cəmiyyət quruculuğu sahəsində müsbət təcrübəyə malik olduğunu qeyd edib.

Söhbət zamanı Azərbaycanda insan haqları ilə bağlı vəziyyət, bu sahədə həyata keçiriləcək Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı barədə məsələlər müzakirə olunub.

Prezident İlham Əliyev və Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk Azərbaycan ilə Avropa İttifaqı arasında paraflanacaq "Tərəfdaşlıq prioritetləri" sənədini yüksək qiymətləndirib, bu sənədin Azərbaycan-Avropa İttifaqı tərəfdaşlıq əlaqələrinin gələcək inkişafı üçün yeni imkanlar açacağını məmnuniyyətlə qeyd ediblər.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun iştirakı ilə "Tərəfdaşlıq prioritetləri" sənədinin paraflanması mərasimi olub.

Sənədin birinci bəndində qeyd edildiyi kimi, əməkdaşlığın daha da gücləndirilməsi məqsədilə qarşılıqlı maraq və birgə dəyərlərə əsaslanaraq Azərbaycan və Avropa İttifaqı tərəfindən birgə tərəfdaşlıq prioritetləri razılaşdırılıb. Eyni zamanda, birinci bənddə hər iki tərəfin ölkələrin ərazi bütövlüyü, müstəqilliyi və suverenliyi ilə yanaşı, dövlətlərin beynəlxalq sərhədlərin toxunulmazlığının dəstəklənməsinə sadiqliyi ifadə olunur.




*NATO-nun Zirvə toplantısı*

Tərəfdaşlıq və qarşılıqlı hörmətə əsaslanan sənəd, həmçinin Azərbaycanın öz iqtisadiyyatının şaxələndirilməsinə yönəlmiş siyasətini, ölkəmizdə iqtisadi islahatlar gündəliyinin dəstəklənməsi istiqamətində görülən işlərə Avropa İttifaqının mümkün töhfəsini qeyd edir.

Sənəddə Azərbaycanın əlverişli geostrateji mövqeyə malik olması, ölkəmizin Şərq-Qərb və Şimal-Cənub nəqliyyat və enerji layihələrinin həyata keçirilməsinə verdiyi töhfə də Avropa İttifaqı tərəfindən vurğulanır. Eyni zamanda, "Cənub Qaz Dəhlizi" layihəsinin tezliklə tam yekunlaşmasının və bunun nəticəsində Avropa bazarlarına təbii qazın çatdırılmasının əsas prioritetlər sırasında olduğu bildirilir.

Həmçinin Azərbaycanın mədəniyyətlərarası dialoqun inkişafına verdiyi töhfənin əhəmiyyəti vurğulanır və bu sahədə Avropa İttifaqının Azərbaycanla əməkdaşlığa xüsusi marağı olduğu bildirilir. Eyni zamanda, paraflanan sənəddə Azərbaycan ilə Avropa İttifaqı arasında vizaların ləğvi sahəsində dialoqun perspektivləri də əksini tapıb.

Səfər zamanı Brüsseldə NATO-nun müttəfiq və tərəfdaş ölkələrinin dövlət və hökumət başçıları üçün qəbul təşkil edilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qəbulda iştirak edib.

Dövlətimizin başçısı Brüsseldə NATO-nun Əfqanıstanda həyata keçirdiyi əməliyyata töhfə verən tərəfdaş ölkələrin dövlət və hökumət başçılarının və potensial əməliyyat tərəfdaşlarının iştirakı ilə Qətiyyətli Dəstək missiyası üzrə Şimali Atlantika Şurasının görüşündə də iştirak edib.

NATO-nun yeni mənzil-qərargahında keçirilən tədbirdən əvvəl Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Bosniya və Herseqovinanın Rəyasət Heyətinin sədri Bakir İzetbeqoviç ilə görüşüb. Türkiyənin dövlət başçısı Azərbaycan Prezidentini və Bosniya və Herseqovinanın Rəyasət Heyətinin sədrini Türkiyənin NATO-dakı ofisinə çay süfrəsinə dəvət edib.

Sonra Qətiyyətli Dəstək missiyası üzrə Şimali Atlantika Şurasının görüşündə Azərbaycan Prezidenti İlham Əliyev çıxış edərək Azərbaycanla NATO arasında güclü tərəfdaşlıq əlaqələrinin regional təhlükəsizlik və sabitlik məsələlərində mühüm rol oynadığını, 2002-ci ildən başlayaraq Azərbaycan sülhməramlılarının NATO hərbçiləri ilə Əfqanıstanda çiyin-çiyinə xidmət etdiyini, cari ilin yanvar ayından Azərbaycanın Qətiyyətli Dəstək missiyasındakı hərbçilərinin sayını 30 faiz artıraraq 120 nəfərə çatdırdığını söyləyib.

Azərbaycanın bir neçə dəfə Əfqanıstan Milli Ordusu üçün Etimad Fonduna maliyyə dəstəyi göstərdiyini, ölkəmizdə Əfqanıstan Ordusunun şəxsi heyəti üçün təlimlər təşkil edildiyini, özündə 200-dən çox ictimai xidməti birləşdirən "ASAN xidmət"in Əfqanıstanda tətbiq olunduğunu diqqətə




*Xatirə şəkli*

çatdırıb, Azərbaycanın Qətiyyətli Dəstək missiyasına nəqliyyat və logistik dəstək də göstərdiyini, ötən ilin oktyabr ayında Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsinin bu missiyaya tranzit dəstəyi göstərilməsinə böyük dərəcədə kömək etdiyini bildirib.

Dövlətimizin başçısı keçən il Azərbaycanın "Asiyanın Qəlbi - İstanbul Prosesi"nə həmsədrlik, keçən ay isə Beynəlxalq Təmas Qrupunun toplantısına ev sahibliyi etdiyini vurğulayaraq qeyd edib ki, Ermənistanın təcavüzündən əziyyət çəkən və bu təcavüz nəticəsində beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizi işğal olunmuş, bir milyon soydaşına qarşı məlum acınacaqlı etnik təmizləmə törədilmiş Azərbaycan işğalın və dağıntının iqtisadi və humanitar nəticələrini yaxşı anlayır.

Azərbaycan NATO və bu təşkilatın üzv dövlətləri tərəfindən ölkəmizin siyasi müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə və Ermənistanla münaqişənin bu prinsiplərə əsaslanan həllinə verdiyi davamlı dəstəyi yüksək qiymətləndirir.

Prezident İlham Əliyev Azərbaycanın Əfqanıstanın üzləşdiyi təhlükəsizlik təhdidlərinin aradan qaldırılması, ölkədə sülh və inkişafın əldə edilməsi işinə köməyini bundan sonra da davam etdirəcəyini vurğulayıb.

Səfər çərçivəsində Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qaninin görüşü olub.

Görüşdə ölkələrimiz arasında müxtəlif sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olunub, Azərbaycanın Əfqanıstana humanitar sahədə göstərdiyi dəstək xüsusi vurğulanıb. Söhbət zamanı regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb, Azərbaycanın Əfqanıstanda sülhün bərqərar edilməsi istiqamətində xüsusi rolu qeyd edilib. Həmçinin, ölkələrimiz arasında iqtisadi sahədə əməkdaşlığın perspektivləri müzakirə olunub.

Dövlətimizin başçısı Brüsseldə BMT baş katibinin siyasi məsələlər üzrə müavini Rozmari Dikarlo ilə də görüşüb. Görüşdə Azərbaycan ilə BMT arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirilib, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsi müzakirə edilib.

İyulun 12-də Prezident İlham Əliyevin Belçikaya səfəri başa çatıb.



# İtaliya Prezidenti Sercio Mattarellanın Azərbaycana rəsmi səfəri

**İyulun 17-19-da İtaliya Respublikasının Prezidenti Sercio Mattarella Azərbaycan Respublikasında rəsmi səfərdə olub.**

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın təkbətək görüşü olub.

Görüşdə Azərbaycan ilə İtaliya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər istiqamətlərdə uğurla inkişaf etdiyi vurğulanıb, İtaliya Prezidentinin Azərbaycana səfərinin əlaqələrimizin genişləndirilməsinə töhfə verəcəyinə əminlik ifadə olunub.

Söhbət zamanı ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirilib, Azərbaycan-İtaliya sənədlərinin imzalanması mərasimi olub.

Azərbaycan Prezidenti İlham Əliyevin və İtaliya



*Azərbaycan və İtaliya prezidentlərinin təkbətək görüşü*




*“SOCAR Polymer” layihəsi çərçivəsində inşa olunan polipropilen zavodunun açılışı*



Prezidenti Sercio Mattarellanın iştirakı ilə keçirilən mərasimdə Azərbaycan Memarlıq və İnşaat Universiteti ilə İtaliyanın Milan Politexnik Universiteti arasında, həmçinin, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti ilə İtaliya Dövlət Dəmir Yolları arasında Anlaşma memorandumları, Azərbaycanın Kənd Təsərrüfatı Nazirliyi ilə İtaliyanın Səhiyyə Nazirliyi arasında baytarlıq təbabəti üzrə Texniki Anlaşma, Azərbaycanın Təhsil Nazirliyi ilə İtaliyanın Təhsil, Universitetlər və Tədqiqat Nazirliyi arasında ali təhsil üzrə əməkdaşlıq barədə Birgə Bəyannamə imzalanıb.

Sonra Azərbaycanın və İtaliyanın dövlət başçıları mətbuata bəyanatlarla çıxış ediblər.

İtaliya Prezidentinin Azərbaycana ilk səfərini tarixi səfər adlandıran Prezident İlham Əliyev İtaliya-Azərbaycan əlaqələrinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini ifadə edib, əlaqələrimizin çoxşaxəli olduğunu vurğulayıb, hazırda ATƏT-in sədri olan İtaliyanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində fəal rol oynayacağına ümidvar olduğunu söyləyib, münaqişə və onun Azərbaycan üçün acı nəticələri barədə məlumat verib, Avropa İttifaqı ilə Azərbaycan arasında bu günlərdə paraflanmış "Tərəfdaşlığın prioritetləri" sənədində də Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərin toxunulmazlığına bir daha Avropa İttifaqı tərəfindən dəstək göstərildiyini, həmçinin NATO Zirvə görüşünün nəticəsində qəbul edilmiş Bəyannamədə də Azərbaycanın ərazi bütövlüyünün,





*Azərbaycan və İtaliya biznes forumu*

suverenliyinin dəstəkləndiyini diqqətə çatdırıb.

Azərbaycan və İtaliyanın strateji tərəfdaş, siyasi əlaqələrimizin çox yüksək səviyyədə olduğunu qeyd edən dövlətimizin başçısı bildirib ki, İtaliya ölkəmiz üçün birinci ticarət tərəfdaşıdır. Azərbaycan böyük həcmdə neftini İtaliya istiqamətinə göndərir, enerji sahəsində çox gözəl əməkdaşlıq var.

Prezident İlham Əliyev həmçinin İtaliya şirkətlərinin Azərbaycanda uğurla fəaliyyət göstərməsindən, inşaat sektorunda, kənd təsərrüfatı, ağır sənaye sahələrində bir çox layihələri icra etmələrindən bəhs edib, ölkəmizin sürətli iqtisadi-sənaye inkişafının tələb etdiyi yeni texnologiyaları dost ölkələrdən əldə etmək barədə niyyətini söyləyib.

Sonra İtaliya Prezidenti Sercio Mattarella bəyanatla çıxış edərək İtaliyanın Azərbaycana səfər edən ilk Prezidenti olmasından çox böyük məmnunluq duyduğunu bildirib, münasibətlərimizin ölkələrimiz arasında mükəmməl səviyyədə olan ikitərəfli əməkdaşlığımızın nəticəsi olduğunu, İtaliyanın Azərbaycanı özünün etibarlı tərəfdaşı hesab etdiyini, ölkəsinin qlobal səviyyədə də Azərbaycan ilə əməkdaşlığa əhəmiyyət verdiyini vurğulayıb, İtaliya tərəfinin Azərbaycanın dünyəviliyini və dini tolerantlığa olan hörmətini çox alqışladığını, radikalizmdən doğan təhlükələrə qarşı Azərbaycanın gördüyü işləri dəstəklədiyini qeyd edib.

İtaliyanın Azərbaycanın öz iqtisadiyyatını şaxələndirməsinə çox böyük önəm verdiyini və bunu alqışladığını vurğulayan Prezident Sercio Mattarella dostluq münasibətləri çərçivəsində İtaliya şirkətlərinin Azərbaycanda energetika sahəsindən başqa digər sahələrdə də öz fəaliyyətini qurmaq imkanından, müdafiə sahəsində iki ölkənin şirkətlərinin əməkdaşlığından bəhs edib, Azərbaycan ilə İtaliya arasında mədəniyyət sahəsində də əlaqələrinə toxunaraq elmin və texnologiyanın hesabına bu sahədə qarşılıqlı fəaliyyətin inkişaf perspektivlərindən danışıb.

İtaliyanın dövlət başçısı ölkəsinin ATƏT-də sədrliyi çərçivəsində də Azərbaycana öz töhfəsini verəcəyini vurğulayaraq İtaliyanın xüsusən regionda olan problemlərlə, həmçinin Azərbaycanın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı öz dəstəyini göstərəcəyini qeyd edib.

Həmçnin bildirib ki, Azərbaycan ilə İtaliya arasında mədəniyyət, iqtisadiyyat və siyasi sahələrdə əməkdaşlıq, eləcə də dostluq münasibətləri mövcuddur. İtaliya həmişə Azərbaycanın inkişafı üçün onun yanında olacaq.

Səfər zamanı Sumqayıt Kimya Sənaye Parkının ərazisində "SOCAR Polymer" layihəsi çərçivəsində inşa edilən polipropilen zavodunun açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İtaliya Respublikasının Prezidenti Sercio Mattarella açılış mərasimində iştirak ediblər. Dövlət başçıları tədbirdə çıxış edərək bu müəssisənin yaradılmasının İtaliya-Azərbaycan dostluğunun təzahürü olduğunu, zavodun istifadəyə verilməsinin iqtisadi və sənaye istehsalı sahəsində inkişafa xidmət edəcəyini vurğulayıblar.

Sonra SOCAR-ın prezidenti Rövnəq Abdullayev və İtaliyanın "Maire Tecnimont" şirkətinin prezidenti Fabrizio di Amato çıxış ediblər.

Tədbirdə "SOCAR Polymer" şirkətinin fəaliyyəti və burada həyata keçirilən layihələrdən bəhs edən qısa film nümayiş olunub. Azərbaycan Prezidenti İlham Əliyev və İtaliya Prezidenti Sercio Mattarella polipropilen zavodunu işə salıb, zavodda görülən işlərlə tanış olublar.

İyulun 18-də İtaliya Prezidentinin Azərbaycana səfəri çərçivəsində təltifetmə mərasimi keçirilib.

Azərbaycan və İtaliya arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafında xüsusi xidmətlərinə görə İtaliya Prezidenti Sercio Mattarella Azərbaycanın ali dövlət mükafatı olan "Heydər Əliyev" ordeni, ölkələrimizin humanitar əməkdaşlığının möhkəmləndirilməsində xidmətlərinə görə Prezidentin qızı Laura Mattarella "Şöhrət" ordeni və İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Enzo Moavero Milanesi isə "Dostluq" ordeni ilə təltif olunublar. Dövlətimizin başçısı İlham Əliyev ordenləri təqdim edib.



*İtaliya Prezidentinin Azərbaycanın ali dövlət mükafatı olan “Heydər Əliyev” ordeni ilə təltif olunması*

Azərbaycan Prezidenti İlham Əliyev İtaliyanın "Xidmətlərinə görə" böyük lentlə birlikdə Böyük Xaç Kavaleri ordeni və birinci xanım Mehriban Əliyeva "Xidmətlərinə görə" Böyük Xaç Kavaleri ordeni ilə təltif olunublar. İtaliya Prezidenti Sercio Mattarella ordenləri təqdim edib.

Həmin gün Prezident İlham Əliyev tərəfindən İtaliya Prezidenti Sercio Mattarellanın şərəfinə rəsmi qəbul təşkil olunub. Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və İtaliya Prezidentinin qızı Laura Mattarella rəsmi qəbulda iştirak ediblər. Dövlət başçıları rəsmi qəbulda çıxış ediblər.

Səfər çərçivəsində həmçinin Bakıda, Heydər Əliyev Mərkəzində Azərbaycan-İtaliya biznes forumu keçirilib. Hər iki ölkənin dövlət başçıları forumda iştirak ediblər. Azərbaycanın birinci xanımı və İtaliya Prezidentinin qızı da biznes forumda olublar.

Biznes forumda Azərbaycan və İtaliya tərəfindən rəsmi şəxslərlə yanaşı, enerji, tikinti, dizayn və memarlıq, infrastruktur, nəqliyyat, kənd təsərrüfatı, logistika, mühəndislik, sənaye sahələrində fəaliyyət göstərən 350-dək iş adamı iştirak edib. Dövlət başçıları biznes forumda çıxış ediblər.

İyulun 19-da Heydər Əliyev Mərkəzində Azərbaycan xalqının böyük oğlu, sərkərdəsi və şairi Şah İsmayıl Xətaiyə həsr edilmiş "Əbədiyyət xəzinəsi" adlı sərginin açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, İtaliya Respublikasının Prezidenti Sercio Mattarella və qızı Laura Mattarella Heydər Əliyev Fondu, Florensiyanın Uffizi Qalereyası, Heydər Əliyev Mərkəzi, İtaliyanın Mədəniyyət və Turizm Nazirliyi və İtaliyanın ölkəmizdəki Səfirliyinin dəstəyi ilə təşkil edilmiş sərgi ilə tanış olublar. Həmçinin, Mərkəzdəki "Mini Azərbaycan" sərgisi ilə tanışlıq olub.

Həmin gün İtaliya Prezidenti Sercio Mattarella və respublikamızın Baş naziri Novruz Məmmədov birgə işçi nahar edib, ölkələrimiz arasında iqtisadi, siyasi, humanitar və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olunub, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli yolları barədə fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində İtaliya dövlətinin başçısının Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə ilə də görüşü olub, ali qonaq, həmçinin ADA Universitetində tələbələr qarşısında çıxış edib, onların suallarını cavablandırıb.

Prezident Sercio Mattarella Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarını ziyarət edib, "Əbədi məşəl" abidəsi önünə əklil qoyub.

Səfər zamanı İtaliyanın dövlət başçısının rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Xalça Muzeyi ilə tanış olub. İtaliya Prezidenti və qızı dünya mədəni irs abidələrindən olan İçərişəhəri də gəzib, orta əsr Şərq memarlığının şah əsəri, dünya əhəmiyyətli tarixi-memarlıq abidəsi olan Şirvanşahlar Sarayı Kompleksi, UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilmiş "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu, Qız qalası ilə tanışlıq qonaqlarda xoş təəssürat yaradıb.

İyulun 19-da İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın Azərbaycan Respublikasına səfəri başa çatıb.

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fransa Respublikasına səfəri



*Azərbaycan və Fransa prezidentlərinin görüşü*

**Fransa Respublikasının Prezidenti Emmanuel Makronun dəvəti ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 19-20-də Fransada səfərdə olub.**

Parisdə, Yelisey Sarayında Fransa Respublikasının Prezidenti Emmanuel Makronun adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə nahar verilib.

Yelisey Sarayına gələn dövlətimizin başçısını Fransa Prezidenti Emmanuel Makron qarşılayıb, birgə foto çəkdiriblər.

Müzakirələr zamanı Azərbaycan ilə Fransa arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, energetika, ekologiya, nəqliyyat, təhlükəsizlik, mədəni və digər sahələrdə uğurla inkişaf etdiyi bildirilib, Azərbaycanda Fransız Liseyinin və Azərbaycan-Fransız Universitetinin fəaliyyət göstərməsindən məmnunluq ifadə olunub.

Söhbət zamanı Azərbaycan-Avropa İttifaqı əlaqələri ətrafında fikir mübadiləsi aparılıb.

Vurğulanıb ki, Fransanın aparıcı şirkətləri Azərbaycanda fəaliyyətlərini daha da genişləndirməkdə maraqlıdır.

Həmçinin enerji təhlükəsizliyi məsələsi müzakirə olunub, "Cənub Qaz Dəhlizi" layihəsinin uğurla icra edildiyi vurğulanıb. Neft-qaz sektoru, infrastruktur, nəqliyyat, kosmik sənaye, hava nəqliyyatı, metro tikintisi, hərbi-texniki sahələrdə əməkdaşlıq məsələləri də müzakirə edilib.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunulub. Prezident İlham Əliyev bu münaqişənin həlli ilə bağlı Azərbaycanın mövqeyi barədə ətraflı məlumat verib. ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi olan Fransa Prezidentinin şəxsən bu münaqişənin həllində fəal iştirak edəcəyinə ümidvarlıq ifadə olunub.

Daha sonra sənədlərin imzalanması və mübadiləsi mərasimi olub. "Azərsu" Açıq Səhmdar



*Fransa Senatının sədri Jerar Larşe ilə görüş*

Cəmiyyəti və "SUEZ Group" arasında operativ təlim, know-how transfer və texniki yardım üzrə 2014-cü il tarixli Xidməti Müqaviləyə 2 nömrəli Əlavə, "Azərsu" ASC və "SUEZ Group" arasında Sumqayıt şəhərində suyun və su itkisinin idarə olunmasına dair Niyyət Sazişi, "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti ilə Fransa Respublikasının Milli Kosmik Tədqiqatlar Mərkəzi arasında kosmos sahəsində əməkdaşlıq fəaliyyətinə dair Çərçivə Sazişi, "Azərbaycan Hava Yolları" QSC və "Thales" şirkəti arasında mülki aviasiya sahəsində sənaye əməkdaşlığı haqqında Anlaşma Memorandumu, "Azərbaycan Hava Yolları" QSC-nin kibertəhlükəsizliyi üçün tam təhlilin hazırlanması, "Azeraeronaviqasiya" Hava Hərəkəti İdarəsində kibertəhlükəsizliyin təmini üçün tam təhlilin hazırlanması müqavilələri, uçuş heyətləri üçün inteqrasiya edilmiş brifinq sisteminin yaradılması üzrə Niyyət Məktubu, həmçinin "Modern Construction Group", "Thales" şirkəti ilə Heydər Əliyev Beynəlxalq Aeroportu üçün radiolakasiya sisteminin quraşdırılması müqaviləsi imzalanıb.

Dövlətimizin başçısı Parisdə, həmçinin Fransa Senatının sədri Jerar Larşe ilə görüşüb.

Jerar Larşe Azərbaycan Prezidenti İlham Əliyevi Fransa Senatında yenidən görməkdən məmnun olduğunu, bu cür səfərlərin ölkələrimiz arasında ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsi baxımından əhəmiyyətini qeyd edib. Həmçinin Fransa ilə Azərbaycan arasında iqtisadi, siyasi, təhsil, mədəniyyət sahələrində qarşılıqlı əməkdaşlıqdan danışıb, Bakıda Fransız Liseyinin, Azərbaycan-Fransız Universitetinin fəaliyyət göstərdiyini xüsusi qeyd edib. Bildirib ki, bu, ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsindən xəbər verir.

Fransa Senatına növbəti dəfə gəlməkdən məmnunluğunu ifadə edən Prezident İlham Əliyev qeyd edib ki, bu gün Fransa ilə bütün səviyyələrdə aparılan dialoq Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Fransanı özünə çox yaxın tərəfdaş, dost ölkə hesab edir və Azərbaycan bundan sonra da Fransa ilə mövcud olan əməkdaşlığın daha



*Fransa Milli Assambleyasının sədri Fransua de Rüji ilə görüş*

da genişləndirilməsində maraqlıdır.

Görüşdə vurğulanıb ki, Fransa ilə Azərbaycan arasında mövcud münasibətlər, burada aparılan müzakirələr Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanan Sazişə öz müsbət töhfəsini verəcək. Senatın sədri Avropa İttifaqı ilə Azərbaycan arasında hərtərəfli Sazişin yaxın zamanlarda imzalanacağına ümidvar olduğunu söyləyib.

Söhbət zamanı parlamentlərarası əlaqələrin çox yüksək səviyyədə olduğu qeyd edilib, bu əməkdaşlığın bundan sonra da inkişaf etdirilməsinin zəruriliyi vurğulanıb. Fransa Senatında Fransa-Qafqaz Dostluq Qrupu çərçivəsində bir çox görüşlərin, qarşılıqlı səfərlərin keçirildiyi diqqətə çatdırılıb.

Görüşdə, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsi müzakirə olunub. Senatın sədri vurğulayıb ki, Fransa Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması istiqamətində fəaliyyətini davam etdirmək niyyətindədir.

Sonra Prezident İlham Əliyev Senatın qızıl kitabını imzalayıb.

Parisdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fransa Milli Assambleyasının sədri Fransua de Rüji ilə də görüşü olub.

Görüşdə Azərbaycan ilə Fransa arasında ikitərəfli münasibətlərin, o cümlədən parlamentlərarası əlaqələrin uğurla inkişaf etməsindən məmnunluq ifadə olunub. Prezident İlham Əliyevin Fransaya bu səfərinin əlaqələrimizin genişləndirilməsi baxımından əhəmiyyəti vurğulanıb.

Prezident İlham Əliyev Azərbaycan ilə Fransanın 15 şəhərinin qardaşlaşdığını qeyd edib, bunun ölkələrimiz arasında münasibətlərin səviyyəsini göstərdiyini və regionlar arasındakı təmasların inkişaf etməsinə imkanlar açdığını vurğulayıb.

Görüşdə, həmçinin Azərbaycan-Fransa əlaqələrinin Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı baxımından önəmi qeyd edilib. Ölkələrimiz arasında siyasi, iqtisadi, mədəni sahələrdə münasibətlərin inkişafı, bu sahələrdə gələcək layihələrin reallaşdırılması məsələləri ətrafında fikir mübadiləsi aparılıb, Azərbaycanın Fransada daha geniş tanıdılması istiqamətində işlərin genişləndirilməsinin zəruriliyi vurğulanıb.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ətrafında müzakirələr aparılıb.

Səfər zamanı dövlətimizin başçısının Fransanın bir sıra nüfuzlu şirkətlərinin nümayəndələri ilə və digər rəsmi görüşləri olub.

Parisdə Fransa Beynəlxalq Əlaqələr İnstitutunun icraçı sədri Tyerri de Montbrial ilə görüşdə Fransa-Azərbaycan ikitərəfli münasibətləri, beynəlxalq və regional məsələlər, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ətrafında fikir mübadiləsi aparılıb.

"Naval" qrupunun sədri və baş direktoru Erve

Giyu ilə görüşdə ölkələrimiz arasında hərbi sənaye sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub. Qeyd edilib ki, Azərbaycan ilə Fransa arasında hərbi-texniki sahədə əməkdaşlığın həyata keçirilməsi üçün yaxşı imkanlar var və hazırda Fransa tərəfi ilə konkret layihələr üzərində iş gedir.

"Total" şirkətinin sədri və baş icraçı direktoru Patrik Puyane ilə görüşdə "Abşeron" qaz-kondensat yatağının işlənilməsi və inkişafı ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Xəzərin Azərbaycan sektorundakı "Ümid-Babək" təbii qaz yataqlarının işlənilməsində "Total" şirkətinin iştirak etməsi imkanları müzakirə olunub.

"Airbus" şirkətinin Avrasiya üzrə vitse-prezidenti Silver Delonay ilə görüşdə "Airbus" şirkəti ilə "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti arasında əməkdaşlıq barədə fikir mübadiləsi aparıldı. "Azərsky" və "Spot 6" peyklərinin dünya bazarlarında uğurlu fəaliyyətindən məmnunluq bildirilib. Azərbaycanın gələcəkdə "Airbus" şirkətindən yeni daha yüksək ayırdetmə peyklərini alması və peyklərlə bağlı texnologiyalar ətrafında müzakirələr keçirilib.

"SUEZ" qrupunun baş icraçı direktoru Jan Lui Şassod ilə görüşdə "SUEZ" şirkətinin Bakı və Sumqayıt şəhərlərində içməli suyun təmizlənməsi üzrə bir neçə layihədə iştirakından danışılıb. Azərbaycanın əhalisinin artdığını qeyd edən Prezident İlham Əliyev bu layihələrin vacibliyinə toxunub, onların strateji əhəmiyyətini qeyd edib. Söhbət zamanı bu sahədə mövcud təkliflər nəzərdən keçirilib, gələcək əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb.

"Wilmotte & Associes Architectes" şirkətinin icraçı direktoru xanim Borina Andriye ilə görüşdə şirkət rəhbəri Bakının gözəlliyinin onda dərin təəssürat yaratdığını vurğulayıb, şəhərin infrastrukturunun təkmilləşdirilməsini, yeni binaların, parkların tikilməsini yüksək qiymətləndirib. Söhbət zamanı Bakının inkişaf konsepsiyasının həyata keçirilməsində bu şirkətin iştirakının mümkünlüyü barədə fikir mübadiləsi aparılıb.

"Thales International" şirkətinin baş vitse-prezidenti Rafael Eskinazi ilə görüşdə şirkətin ölkəmizlə əməkdaşlığı yüksək qiymətləndirilib və bu əlaqələrin genişləndirilməsi üçün səylərin davam etdiriləcəyi bildirilib və uğurlu əməkdaşlıq nəticəsində müxtəlif layihələrin həyata keçirilməsi ilə bağlı çox yaxşı nəticələrin əldə olunduğu qeyd edilib.

"Rothschild and Co" şirkətinin Müşahidə Şurasının sədri Devid de Rotşild ilə görüşdə əməkdaşlıqla bağlı məsələlər müzakirə edilib, bu əlaqələrin bank sektorunda, özəlləşdirmə sahəsində genişləndirilməsinin zəruriliyi vurğulanıb. Devid de Rotşild babasının vaxtilə Azərbaycanda uğurlu fəaliyyət göstərdiyini, onun da bu ənənəni davam etdirmək niyyətində olduğunu bildirib.

"IVECO France" şirkətinin prezidenti, "IVECO Global Bus"un rəhbəri Silvan Blez ilə görüşdə dövlətimizin başçısı şirkətin ekoloji baxımdan təmiz avtobuslarının Bakıda uğurla fəaliyyət göstərdiyini məmnunluqla qeyd edib, bu avtobusların şəhərimizin nəqliyyat infrastrukturunun inkişafında oynadığı rolu xüsusi vurğulayıb, IVECO" avtobusları sayəsində Bakıda ictimai nəqliyyatla bağlı bir çox problemlərin həllini tapdığını söyləyib.

Silvan Blez Bakının nəqliyyat infrastrukturu sahəsində regionun aparıcı şəhəri olduğunu vurğulayıb. Bildirib ki, paytaxtda avtobus deposu beynəlxalq normalara uyğun təşkil olunub. O, şirkətinin avtobuslarının Bakının ictimai nəqliyyat infrastrukturunun müasirləşdirilməsində, həmçinin digər texnikalarının kənd təsərrüfatı sahəsində aparıcı rol oynadığına ümid etdiyini qeyd edib.

"CIFAL" qrupunun prezidenti Jil Remi ilə görüşdə Azərbaycan-Fransa işgüzar dairələrinin əməkdaşlığı, birgə layihələrin icrası, investisiya qoyuluşu məsələləri və digər sahələrdə əlaqələrin perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Fransanın Azərbaycanda fəaliyyət göstərən ən böyük şirkətlərindən biri olan "Bouygues Travaux Publics" şirkətinin baş icraçı katibinin müavini Mark Adler ilə görüşdə qurumun ölkəmizdə nəqliyyat, inşaat, metro tikintisi sahələrində işləməkdə maraqlı olduğu bildirilib. Prezident İlham Əliyev bunu yüksək qiymətləndirərək əməkdaşlığın bundan sonra da davam edəcəyinə əminliyini ifadə edib.

Fransanın SADE şirkətinin prezidenti Patrik Lölo ilə görüşdə şirkətin Azərbaycanda "Ağıllı Şəhər" layihəsində və meliorasiya sahəsində fəaliyyətindən məmnunluq ifadə olunub. Patrik Lölo bildirib ki, SADE Azərbaycanda fəaliyyətini bundan sonra da davam etdirmək niyyətindədir.

Prezident İlham Əliyev SADE şirkətinin Azərbaycanda fəaliyyətinin dəstəkləndiyini qeyd edib, vurğulayıb ki, meliorasiya sahəsi Azərbaycan üçün prioritet istiqamətlərdəndir.

İyulun 20-də dövlətimizin başçısının Fransaya səfəri başa çatıb.



# Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin iclası keçirilib

**İyulun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.**

İclası giriş nitqi ilə açan dövlətimizin başçısı ilin altı ayında qarşıda duran bütün vəzifələrin uğurla icra edildiyini, Azərbaycanın öz dinamik inkişaf templərini saxladığını, həm iqtisadi, həm beynəlxalq siyasət sahələrində uğurlar əldə etdiyini vurğulayıb.

Aprel ayında keçirilmiş prezident seçkilərindən danışan ölkə rəhbəri Azərbaycanın son 15 il ərzində çox böyük və şərəfli yol keçdiyini, xalqın dəstəyi ilə

bundan sonra da ölkəmizin inkişaf yolu ilə inamla irəliyə aparılacağını bildirib.

Xarici siyasət sahəsində altı ayda böyük işlərin görüldüyü, Azərbaycanın beynəlxalq əlaqələrinin möhkəmləndirildiyi, qonşu ölkələrin dövlət və hökumət başçıları ilə görüşlərin keçirildiyi, hazırda Avropa İttifaqı ilə yeni Saziş üzərində işlərin aparıldığı, Amerika Birləşmiş Ştatları ilə əlaqələrin yeni mərhələyə qalxdığı diqqətə çatdırılıb, Bakıda mötəbər beynəlxalq konfransların keçirildiyi qeyd olunub.

Bu müsbət fonda Ermənistanın 20 il ərzində kriminal, korrupsioner, qaniçən, oğru, yalançı hakimiyyətinin tam iflasa uğradığını söyləyən Prezident İlham Əliyev ölkəmizin Ermənistanı bütün layihələrdən məhrum etdiyini, onlara qarşı təcrid siyasətimizi uğurla apardığını qeyd edərək bu siyasətin torpaqlarımız işğal altında olduğu müddətdə davam etdiriləcəyini bəyan edib. Bildirib ki, münaqişənin həllinin bir yolu var: işğalçı qüvvələr işğal edilmiş torpaqlardan çıxarılmalı, ölkəmizin ərazi bütövlüyü bərpa edilməli, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi icra olunmalıdır.

Dövlət başçısı, həmçinin Ordumuzun döyüş qabiliyyətinin çox yüksək səviyyədə olduğunu, 2016-cı il Aprel döyüşlərinin, bu il isə Naxçıvan əməliyyatının zəfərlərinin bunun əyani təzahürü olduğunu və ötən ay keçirilmiş paradın ölkəmizin hərbi qüdrətini nümayiş etdirdiyini qeyd edib, Azərbaycanın ordu quruculuğu istiqamətində inamla irəlilədiyini söyləyib.

"İqtisadi baxımdan 15 il ərzində Azərbaycan qədər inkişaf edən ikinci dövlət yoxdur", - deyən Prezident İlham Əliyev ölkəmizin cari ilin altı ayı ərzindəki sosial-iqtisadi göstəricilərini səsləndirib.

Ümumi daxili məhsul 1,3 faiz, qeyri-neft sektoru 2 faiz, sənaye istehsalı 1 faiz, qeyri-neft sənaye 8,8 faiz artıb. Həmçinin kənd təəssüratı 7,6 faiz, xüsusilə bitkiçilik 14 faizdən çox artıb, 58 mini daimi olmaqla 67 min yeni iş yeri yaradılıb. Ölkə iqtisadiyyatına 6 milyard dollar sərmayə qoyulub. İnflyasiya cəmi 3 faizdir. Əhalinin pul gəlirləri 9,3 faiz artıb.

Xarici ticarət dövriyyəsi 35 faiz, ixrac 34 faiz, o cümlədən qeyri-neft ixracı 20 faiz artıb. Xarici ticarətin müsbət saldosu 4,2 milyard dollardır, ilin əvvəlindən valyuta ehtiyatlarımız da artıb və bu gün ölkəmizin valyuta ehtiyatları 44,3 milyard dollar təşkil edir.



Bu ilin birinci yarısında həm nəqliyyat, həm energetika sahələrində önəmli hadisələr baş verib, Ələt Beynəlxalq Dəniz Ticarət Limanı istifadəyə verilib, Cənub Qaz Dəhlizinin və TANAP-ın rəsmi açılışları olub.

Sonra iqtisadiyyat naziri Şahin Mustafayev, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə, "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin sədri Zakir İbrahimov məruzə ilə çıxış ediblər.

Dövlətimizin başçısı iclasda yekun nitq söyləyərək ölkəmizin sosial-iqtisadi inkişafının təmin olunması ilə bağlı qarşıda yeni vəzifələri müəyyənləşdirib.

Bildirib ki, Azərbaycan iqtisadiyyatının dinamik şəkildə tərəqqisi üçün islahatlar daha da dərinləşməli, qeyri-neft sektorunun inkişafı sürətlə davam etdirilməli, iqtisadi və maliyyə sektorlarında maksimum şəffaflıq təmin edilməli, vergi və gömrük sistemlərində islahatlar paralel olaraq aparılmalı və bu orqanlar dünyanın inkişaf etmiş ölkələrinin səviyyəsinə qalxmalı, sahibkarlara bərabər, qanunauyğun şərait yaradılmalı, eyni zamanda, sahibkarlar tərəfindən vergidənyayınma hallarına son qoyulmalıdır.

Dövlətimizin başçısı, həmçinin sosial təminat sahəsində də ciddi islahatların aparılması, sosial ədalətin tam bərqərar olması və şəffaflığın tam təmin edilməsi, ölkədə kütləvi xarakter daşıyan qeyri-formal məşğulluğa qarşı çox ciddi tədbirlərin görülməsi, iş yerlərinin yaradılması prosesinin daim aparılması, özünüməşğulluq proqramının icrasının davam etdirilməsi, korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizənin daha ciddi aparılması və bu xoşagəlməz hallara son qoyulması ilə bağlı konkret tapşırıqlar verib.

İnşaat sektorunun narahatlıq doğuran sahələrdən biri olduğunu söyləyən ölkə başçısı bu sahədə işlərin şəhərsalma, tikinti meyarlarına uyğun aparılmasının vacibliyini, qanunsuz tikililərə son qoyulmasını, belə hallara şərait yaradan dövlət məmurlarının çox ciddi cəzalandırılacağını vurğulayıb, burada vahid bir nəzarət mexanizminin yaradılmasının zəruriliyini qeyd edib.

Prezident İlham Əliyev, həmçinin şəhər nəqliyyatının tənzimlənməsi, sahibkarlar tərəfindən xarici bazarlara çıxmaqda fəallığın artırılması, infrastruktur layihələri ilə bağlı dövlət investisiya proqramında nəzərdə tutulmuş bütün vəzifələrin ilin sonuna qədər icra edilməsi ilə bağlı göstərişlər verib, elektrik enerjisi ilə bağlı vəziyyət haqqında danışıb, qazlaşdırmanın bu ilin sonuna qədər 95 faizə çatacağını, içməli su layihələrinin icrasının, avtomobil yollarının tikintisinin davam edəcəyini söyləyib, sosial infrastrukturla bağlı bütün işlərin plan üzrə getdiyini, investisiya təşviqi mexanizminin işə düşdüyünü, sənayenin inkişafı ilə bağlı yaxın gələcəkdə iki böyük zavodun istifadə veriləcəyini bildirib.

Eyni zamanda, əlavə sənaye parklarının yaradılması, kənd təsərrüfatında ən müasir standartların tətbiqi və bu sahənin yüksək texnoloji sahəyə çevrilməsi, aqroparkların genişləndirilməsi, turizm sektorunun inkişafı, "ASAN xidmət" mərkəzlərinin sayının artırılması, dəmir yolu layihələrinin icrasının davam etdirilməsi ilə bağlı və digər qarşıda duran vəzifələr diqqətə çatdırılıb.

İclasın sonunda dövlətimizin başçısı Davos Dünya İqtisadi Forumunun hesablamalarına görə Azərbaycanın dünya miqyasında rəqabətqabiliyyətliliyinə görə 35-ci, yol infrastrukturunun inkişafına görə 36-cı, inkişaf edən ölkələr arasında inklüziv inkişaf indeksinə görə 3-cü, ümumi infrastrukturun inkişafına görə dünya miqyasında 26-cı, xalqın iqtidara dəstəyinə görə dünya miqyasında 20-ci yerdə qərarlaşdığını vurğulayaraq bildirib ki, ölkəmizin böyük uğurlara imza atması əyani şəkildə göstərir ki, bizim siyasətimiz xalq tərəfindən dəstəklənir və biz elə etməliyik ki, ölkəmizin inkişafını dayanıqlı və daimi edək.

# Ədliyyə Nazirliyinin Kollegiya iclaslarında

**İyulun 9-da ədliyyə naziri Fikrət Məmmədovun sədrliyi ilə nazirliyin kollegiya iclası keçirilib.**

Kollegiyada dövlət başçısının Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunan iclasında və enerji sistemindəki vəziyyətlə əlaqədar keçirdiyi müşavirədə verdiyi tapşırıqlarla bağlı ədliyyə orqanlarının üzərinə düşən vəzifələr müzakirə olunub.

Nazir ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızın davamlı sosial-iqtisadi tərəqqisinin təmin edildiyini, bütün sahələrdə irəliləyişlərə nail olunduğunu bildirib. Dövlət başçısının tapşırıqlarından irəli gələn məsələlər vurğulanaraq bu sahədə ədliyyə orqanlarının qarşısında duran mühüm vəzifələrə toxunulub. İqtisadi inkişafa mane olan korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, fəaliyyətdə şəffaflığın artırılması, habelə büdcə vəsaitlərindən qənaətlə istifadə edilməsi, izafi xərclərin qarşısının alınması üzrə konkret tapşırıqlar verilib.

İclasda həmçinin, ölkənin enerji sistemində baş vermiş fövqəladə hadisə ilə əlaqədar dövlət başçısının göstərişləri diqqətə çatdırılıb. Bildirilib ki, bu sahədə yaranmış ciddi problem ölkə rəhbəri tərəfindən dərhal nəzarətə götürülərək elə həmin tarixdə qəzanın səbəblərinin araşdırılması və nəticələrinin aradan qaldırılması məqsədilə Dövlət Komissiyası yaradılıb, görülmüş operativ tədbirlər nəticəsində enerjinin verilməsi bərpa edilib.

Qəza baş verdikdən sonra dərhal Ədliyyə Nazirliyinin struktur qurumlarının, o cümlədən xüsusi mühafizə olunan penitensiar və tibb müəssisələrinin dayanıqlı enerji ilə təminatı üzrə zəruri tədbirlər görülüb, təhlükəsizlik və mühafizə tədbirləri gücləndirilib.

Kollegiyada ədliyyə orqanlarının işinin, o cümlədən elektron sistemlərin, reyestrlərin və digər informasiya resurslarının, probasiya xidmətinin elektron monitorinq mərkəzinin, xüsusi mühafizə olunan müəssisə və qurğuların, video-müşahidə kameralarının fasiləsiz fəaliyyətinin təmin olunması üzrə tədbirlərə dair əlavə tapşırıqlar verilib.

Həmçinin mülki müdafiə və mühafizə tədbirlərinin, məsul növbətçiliyin təkmilləşdirilməsi, texniki avadanlıqların, habelə ehtiyat enerji mənbələrinin və zəruri rabitə vasitələrinin işlək vəziyyətdə saxlanılması, müasir generatorların quraşdırılması ilə bağlı və digər konkret tədbirlər müəyyən olunub.

**İyulun 26-da keçirilmiş kollegiya iclasında isə 2018-ci ilin birinci yarısında ədliyyə orqanları tərəfindən görülmüş işlər müzakirə olunub.**

Nazir Fikrət Məmmədov ulu öndər Heydər Əliyevin müəyyən etdiyi hərtərəfli inkişaf strategiyasını uğurla həyata keçirən ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın davamlı sürətli tərəqqisini vurğulayıb, 2018-ci ilin ölkəmiz üçün əlamətdar tarixi hadisələrlə zəngin olduğunu, ümummilli lider Heydər Əliyevin anadan olmasının 95, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileylərinin yüksək səviyyədə qeyd edildiyini, bu münasibətlə ədliyyə orqanlarında silsilə tədbirlərin keçirildiyini vurğulayıb.

İclasda dövlət başçısının tapşırıqlarına uyğun olaraq ədliyyə fəaliyyətinin təkmilləşdirilməsi üzrə görülmüş işlər ətraflı təhlil edilib.

Məlumat verilib ki, 2018-ci ildə nazirlik tərəfindən iqtisadi inkişafa, əhalinin maddi və sosial vəziyyətinin yaxşılaşdırılmasına dair 550-dək normativ hüquqi akt layihəsi hazırlanıb, ictimai həyatın



müxtəlif sahələrini tənzimləyən 960-dan çox belə akt hüquqi ekspertizadan keçirilib. Əhalinin təmənnasız istifadə etdiyi qanunvericiliyin elektron bazalarına (e-qanun.az, huquqiaktlar.gov.az) müraciət edənlərin sayı 70 faizdən çox artaraq 627 minə çatıb.

Dövlət başçısının tapşırıqlarına uyğun olaraq vətəndaşların müraciətlərinə baxılması və qəbulu işi diqqətdə saxlanılıb, 6.500-ə yaxın vətəndaş nazirlikdə, bölgələrdə və "virtual qəbul" məntəqələri vasitəsilə qəbul edilib, qaldırılan məsələlərlə bağlı zəruri tədbirlər görülüb.

Notariat orqanlarında 1,9 milyona yaxın notariat hərəkəti, habelə 151 minə yaxın vətəndaşlıq vəziyyəti aktı rəsmiləşdirilib və bu əməliyyatlarla bağlı 22 milyon manata yaxın dövlət rüsumu və haqq ödənilib. Həmçinin daşınmaz əmlakla əlaqədar müqavilələr üzrə notariuslar tərəfindən təxminən 25 milyon manata yaxın vergi dövlət büdcəsinə köçürülüb ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə təxminən 20 % çoxdur.

Eyni zamanda, notariat kontorlarını vahid şəbəkədə birləşdirən "Elektron notariat" informasiya sistemi notariat hərəkətlərinin rəsmiləşdirilməsini xeyli asanlaşdırmaqla vətəndaşlara daha çevik və keyfiyyətli hüquqi xidmətlərin göstərilməsini təmin edir. Bu sahədə islahatlara və yeniliklərə beynəlxalq maraq artaraq, bir çox dövlətlər, o cümlədən cari ildə rusiyalı notariuslar müsbət təcrübəmizdən bəhrələniblər.

Azərbaycan brendi olan "ASAN xidmət" mərkəzlərində ədliyyə sahəsində də əhaliyə səmərəli xidmətlər göstərilir, həmin mərkəzlərdə verilən sənədlərin təxminən 43 faizini bu mərkəzlərdə fəaliyyət göstərən qeydiyyat və notariat orqanlarının payına düşür.

Yüksək vətəndaş məmnunluğu doğuran "ASAN xidmət" şəbəkəsinin genişləndirilməsi nəzərə alınaraq həmin mərkəzlərdə təşkil ediləcək notariat kontorlarında, habelə bölgələrdə vakant notarius vəzifələrinin komplektləşdirilməsi məqsədilə avqust ayının 1-dən etibarən sənədlərin qəbuluna başlanılacaq.

Qeyd edilib ki, ölkə başçısının tapşırıqlarına əsasən korrupsiyanın qarşısının alınması, şəffaflığın artırılması, müasir İKT-lərin tətbiqi üzrə mühüm



işlər görülüb, nazirliyin elektron xidmətləri təkmilləşdirilərək onlardan istifadənin sayı 11 faiz artaraq 2,4 milyona çatıb.

Vətəndaş cəmiyyətinin inkişafında mühüm rol oynayan və nazirlik tərəfindən dövlət qeydiyyatına alınmış qeyri-kommersiya təşkilatlarının ölkədə ümumi sayı 4.300-ə yaxındır, KİV-lərin sayı isə 5.200-dən çoxdur.

2018-ci ilin birinci yarısında nazirliyin Məhkəmə ekspertizası mərkəzində 41 ekspert ixtisası üzrə 15.200-dən çox iş icra olunub, ekspertlər 618 mindən artıq suala cavab verməklə qaldırılmış məsələlərin 99,8%-ni həll ediblər.

Yerli özünüidarə orqanlarının fəaliyyətinə inzibati nəzarət qaydasında 37 mindən çox bələdiyyə aktına baxılıb və nazirliyin təklifləri əsasında 700-dək akt ləğv edilib və ya dəyişdirilib, bələdiyyələr tərəfindən qanunsuz ayrılmış 2 min hektardan artıq torpaq sahəsi geri qaytarılıb. Həmçinin, qanunvericiliyin tələblərini pozan bələdiyyə sədrləri barədə 51 inzibati xəta haqqında protokollar məhkəmələrə, cinayət xarakterli 13 fakt üzrə materiallar isə prokurorluğa göndərilib.

Kollegiyada bildirilib ki, dövlət gənclər siyasətinə uyğun olaraq yeni nəsil kadr korpusunun formalaşdırılması diqqət mərkəzində saxlanılıb, cari ildə 336 vakansiya üzrə təyinatlar aparılıb, digərlərinin komplektləşdirilməsi ilə bağlı birinci mərhələdə uğur qazanmış 226 şəxs üçün hazırda müsabiqənin ikinci mərhələsi başlanılır.

Ədliyyə Akademiyasında 2.800-ə yaxın ədliyyə işçisi və digər hüquqşünas tədris kurslarına cəlb olunub, Akademiyanın Hüquq Klinikasında 200-ə yaxın aztəminatlı şəxsə pulsuz hüquqi yardım göstərilib.

Yarımildə nazirliyin beynəlxalq hüquq əməkdaşlığının genişləndirilməsi üzrə tədbirlər görülüb, Türkiyə, Əlcəzair və Serbiyanın ədliyyə nazirləri, habelə nümayəndə heyətimiz Avstriya və Latviyaya səfər etməklə əməkdaşlıq məsələləri müzakirə olunub, faydalı təcrübə mübadiləsi aparılıb, müvafiq sənədlər razılaşdırılıb, o cümlədən Əlcəzair ilə ilk dövlətlərarası müqavilə, Serbiya ilə ədliyyə sahəsində əməkdaşlığa dair Memorandum imzalanıb. Beynəlxalq öhdəliklərdən irəli gələn məsələlərlə bağlı 9.500-dən çox sorğunun icrası üzrə tədbirlər görülüb.

İclasda dövlət başçısının "Penitensiar sahədə

fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 2017-ci il 10 fevral tarixli Sərəncamının icrası üzrə görülmüş işlər qeyd olunub.

Bildirilib ki, Sərəncamın icrası ilə bağlı ötən ilin sonunda cinayət qanunvericiliyinə edilmiş əsaslı dəyişikliklərə uyğun olaraq 6.500 şəxs barədə sənədlərə məhkəmələrdə baxılıb və məhkumların bir çoxunun cəza müddəti azaldılıb, yaxud cəzası daha yüngül cəza ilə əvəz edilib, 1.550 məhkum isə cəzalardan azad olunub.

Eyni zamanda, penitensiar infrastrukturun müasirləşdirilməsi, bu xidmətin peşəkar kadr korpusunun formalaşdırılması, cəzaçəkmə müəssisələrində istehsalat sahələrinin genişləndirilməsi üzrə əməli tədbirlər görülüb, məhkumların faydalı əməklə məşğul olmaları üçün zəruri şərait yaradılıb.

Bununla yanaşı, azadlıqdan məhrum etməyə alternativ cəzaların səmərəli icrası məqsədilə yaradılmış Probasiya xidmətinin fəaliyyəti təmin edilib, məhkumlar üzərində elektron nəzarət vasitələrinin tətbiqinə başlanılıb, bu məqsədlə elektron monitorinq xidməti istifadəyə verilib.

Bununla yanaşı, probasiya xidmətinin fəaliyyəti ilə bağlı icra qanunvericiliyinə edilmiş dəyişikliklərdən irəli gələn inzibati tənbehin, habelə ictimai işlər və azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan digər cəzaların səmərəli icrası ilə bağlı tədbirlər müzakirə olunub, kollegiyada islah işləri növündə cəzanın icrası qaydalarına müvafiq dəyişikliklər edilib. Sərəncamda nəzərdə tutulan bütün tədbirlərin dürüst, mütəşəkkil və müəyyən edilmiş müddətdə həyata keçirilməsi ilə bağlı əlavə tapşırıqlar verilib.

İclasda görülmüş işlərlə yanaşı, ədliyyə fəaliyyətində mövcud problemlər və çatışmazlıqlar müzakirə olunub, ölkə Prezidentinin insanlara layiqli xidmət göstərilməsi, vətəndaş-məmur münasibətlərinin sağlam zəmində qurulması, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, şəffaflığın artırılması ilə bağlı tələbləri diqqətə çatdırılıb. Eyni zamanda nizam-intizamın möhkəmləndirilməsi, etik davranış qaydalarına dönmədən əməl olunması, müasir İKT-lərin geniş tətbiqi, istintaq işinin yaxşılaşdırılması, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin gücləndirilməsi, penitensiar müəssisələrdə qadağan olunmuş əşyaların dövriyyəsinin qarşısının alınmasına diqqət artırılması, bu sahədə maarifləndirmənin genişləndirilməsi ilə bağlı aidiyyəti üzrə konkret göstərişlər verilib.

Həmçinin normativ hüquqi aktlarla işin təkmilləşdirilməsinə dair hesabat dinlənilib, nazirliyin mühüm fəaliyyət istiqamətlərindən olan qanunvericiliklə iş sahəsində icra intizamının gücləndirilməsi, bu sahədə müasir İKT-lərin imkanlarından istifadə edilməsi ilə bağlı və digər konkret tədbirlər müəyyən olunub.

Eyni zamanda, Kollegiyada Nazirlər Kabinetinin həmin gün keçirilmiş iclasında dövlət başçısının müvafiq fərmanlarına uyğun olaraq milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin icrası, habelə 2019-cu ildə ölkədə əhalinin növbəti siyahıya alınmasının keçirilməsi ilə bağlı verilmiş tapşırıqlar müzakirə edilib, bu sahədə Ədliyyə Nazirliyi tərəfindən görülmüş işlər qeyd olunaraq qarşıda duran əlavə vəzifələrin vaxtında və dürüst icra olunması tapşırılıb.

# Avropa İttifaqı və Şərq Tərəfdaşlığı ölkələri ədliyyə və daxili işlər nazirlərinin görüşü keçirilib

**İyulun 12-13-də Avstriyanın Avropa İttifaqında (Aİ) sədrliyi çərçivəsində İnsbruk şəhərində Aİ və Şərq Tərəfdaşlığı ölkələrinin ədliyyə və daxili işlər nazirlərinin görüşləri keçirilib.**






İclaslarda ölkəmizi ədliyyə naziri Fikrət Məmmədovun başçılıq etdiyi nümayəndə heyəti təmsil edib. Nümayəndə heyətinin tərkibinə daxili işlər nazirinin müavini İsmət Əliyev də daxil olunub.

İlk öncə, bütün Aİ və Şərq Tərəfdaşlığı ölkələrinin ədliyyə və daxili işlər nazirlərinin iştirakı ilə birgə tədbir keçirilib, aktual mövzular üzrə fikir mübadiləsi aparılıb.

Eyni zamanda, Şərq Tərəfdaşlığı dövlətləri, Aİ-nin Şurasında ardıcıl sədrlik edən ölkələrin (Estoniya, Bolqarıstan, Avstriya və Rumıniya) nazirlərinin, habelə Aİ-nin yüksək rəsmilərinin iştirakı ilə ayrıca birgə görüş təşkil olunub.

Görüşdə "Qanunun aliliyinin təşviqi və dürüstlüyünün stimullaşdırılması: məhkəmə və təhlükəsizlik orqanlarında korrupsiyaya qarşı mübarizə" mövzusunda müzakirələr aparılıb.

Tədbirdə çıxış edən Azərbaycan nümayəndə heyətinin rəhbəri F.Məmmədov dövlət başçısı cənab İlham Əliyevin siyasi iradəsi ilə korrupsiyaya qarşı aparılan qəti mübarizə tədbirlərini, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi və bütün layihələrin antikorrupsiya ekspertizasından keçirilməsini, məhkəmə sisteminin islahatını, o cümlədən hakimlərin Avropa Şurası və Avropa İttifaqı tərəfindən örnək kimi dəyərləndirilən ən şəffaf seçimini vurğulayıb. Eyni zamanda, getdikcə səlahiyyətləri genişlənən Məhkəmə-Hüquq Şurasının səmərəli fəaliyyəti, o cümlədən korrupsiyanın qarşısının alınması üzrə tədbirləri, məhkəmə infrastrukturunun müasirləşdirilməsi və elektron məhkəmənin tətbiqi barədə məlumat verilib. Həmçinin, Azərbaycan brendi olan ASAN xidmətin yüksək vətəndaş məmnunluğunu təmin edən fəaliyyəti, antikorrupsiya treninqləri, o cümlədən ölkəmizin Avstriyada yerləşən Beynəlxalq Antikor-

rupsiya Akademiyası ilə səmərəli əməkdaşlığı vurğulanıb *(Rus dilində edilmiş çıxışın Azərbaycan dilinə tərcümə olunmuş mətni jurnalımızın bu sayında oxucularımızın diqqətinə təqdim olunur).*

Görüş iştirakçıları tərəfindən bu məlumatlar böyük maraqla qarşılanaraq təqdir edilib.

Səfər zamanı Aİ və Şərq Tərəfdaşlığı ölkələrinin ədliyyə və daxili işlər nazirləri ilə işçi görüşlər keçirilərək fikir və təcrübə mübadiləsi aparılıb, ikitərəfli əməkdaşlıq perspektivləri müzakirə olunub.

## Aİ və Şərq Tərəfdaşlığı ölkələrinin ədliyyə və daxili işlər nazirlərinin "Qanunun aliliyinin təşviqi və dürüstlüyünün stimullaşdırılması: məhkəmə və təhlükəsizlik orqanlarında korrupsiyaya qarşı mübarizə" mövzusunda keçirilmiş görüşündə

# Azərbaycan Respublikasının ədliyyə naziri Fikrət Məmmədovun çıxışı

**Hörmətli həmkarlar,**
**Xanımlar və cənablar,**



İlk növbədə, belə bir aktual mövzuya həsr olunmuş konfransın yüksək səviyyədə təşkilinə görə minnətdarlığımı bildirmək istərdim.

Əlbəttə ki, korrupsiya ilə effektiv mübarizə bütün beynəlxalq ictimaiyyəti narahat edən ciddi problemdir. Bu qlobal bəla ilə səmərəli mübarizə, hər şeydən əvvəl, siyasi iradə tələb edir. Azərbaycan rəhbərliyi belə qəti siyasi iradə nümayiş etdirmişdir. Ölkəmizdə korrupsiya ilə səmərəli mübarizə üçün mükəmməl qanunvericilik bazası yaradılmışdır və qəbul olunan bütün qanunvericilik aktları antikorrupsiya ekspertizasından keçirilir. Bu, korrupsiyaya qarşı bütün sahələrdə mübarizənin aparılması üçün olduqca vacibdir.

İnstitusional tədbirlərə gəlincə, vurğulanmalıdır ki, ölkəmizdə Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya, həmçinin Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş idarəsi yaradılaraq uğurla fəaliyyət göstərir və bu idarə ən geniş səlahiyyətlərə malikdir.

Məhkəmə sistemindən danışarkən isə, bildirməliyəm ki, bu sahədə islahatların təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilir. İslahatlar nəticəsində, həmçinin məhkəmə sistemində korrupsiya ilə mübarizədə mühüm rol oynayan iki mühüm müstəqil orqan yaradılmışdır. Onlardan biri məhkəmə hakimiyyətinin özünüidarəsi ilə bağlı bütün məsələlərlə məşğul olan Məhkəmə-Hüquq Şurasıdır. Digəri isə hakimliyə namizədlərin seçimini maksimum şəffaflıqla təmin edən Hakimlərin Seçki Komitəsidir. Təsəvvür edin ki, hakimliyə namizədlərlə test imtahanının bütün mərhələləri internetdə onlayn rejimdə canlı yayımlanır. Azərbaycanın bu sahədə təcrübəsi Avropa Şurası və Avropa İttifaqı tərəfindən öyrənilərək ən yaxşı təcrübə kimi dəyərləndirilmiş və digər dövlətlərə tövsiyə edilmişdir.

Eyni zamanda, məhkəmə sistemində korrupsiyaya qarşı mübarizə tədbirləri çərçivəsində Məhkəmə-Hüquq Şurasında xüsusi sektor yaradılmışdır və korrupsiya ilə bağlı daxil olan hər

bir şikayət Şura tərəfindən dərhal araşdırma predmetinə çevrilir. İntizam icraatının başlanması da Şuranın müstəsna səlahiyyətinə aiddir. Şurada hakimiyyətin bütün qolları təmsil olunsa da, intizam icraatı üzrə araşdırma və səsvermədə yalnız Şuranın hakim üzvləri iştirak edirlər ki, bu da prosesin obyektivliyinə əlavə təminat verir.

Korrupsiya hüquqpozmalarına görə 35 hakim intizam məsuliyyətinə cəlb olunmuş, o cümlədən 7 nəfərin hakimlik səlahiyyətlərinə vaxtından əvvəl xitam verilmişdir. Həmçinin, 4 nəfər aşağı işə keçirilmiş, 7 nəfərin iş yeri dəyişdirilmiş, digər cəza tədbirləri görülmüşdür.

Onu da qeyd etməliyəm ki, hakimlərin fəaliyyətinin qiymətləndirilməsinə də xüsusi diqqət yetirilir. Bu, onların gələcəkdə vəzifədə irəli çəkilməsi üçün vacibdir. Həyata keçirilən effektiv tədbirlərə baxmayaraq, Avropa İttifaqı ilə əməkdaşlıq edilərək hazırda bu sahədə ən yaxşı təcrübələr nəzərə alınmaqla yeni metodologiya hazırlayırıq.

Eyni zamanda, hakimlərin etik davranış Kodeksi qəbul edilmişdir. Azərbaycana səfər etmiş Banqalor prinsiplərinin müəllifi, Şri-Lankanın sabiq ədliyyə naziri Cayavikrama onu öyrənərək yüksək dəyərləndirmiş, həmçinin hakimlərimiz üçün treninqlər keçirmişdir.

Bildirmək istərdim ki, bu gün məhkəmə sistemində şəffaflığın təmin olunmasına böyük önəm verilir, biz artıq elektron məhkəmə sisteminin tətbiqinə başlamışıq. Konkret işlər üzrə məhkəmə proseslərinin audio-video yazısı aparılır, həmçinin çıxarılan qərarlar elektron qaydada dərc edilir. Məhkəmələrin yeni infrastrukturu yaradılır, məhkəmə binaları inzibati və ictimai zonalara bölünür ki, bununla da proses iştirakçıları ilə hakimlər arasında qeyri-prosessual münasibətlərin qarşısı alınır.

Həyata keçirilən tədbirlərin səmərəsindən danışarkən, sözsüz ki, ictimai rəyi də nəzərə alırıq. Ədalət mühakiməsinə çatımlılığın təmin olunması ilə yanaşı, məhkəmələrə inamın artması da əsas prioritetlərdəndir. Burada beynəlxalq aləmdə təqdir olunan bəzi nailiyyətlərimizi qeyd etmək istərdim. Azərbaycan "Məhkəmənin Nəbzi: İdarəetmədə İnqilab" layihəsi ilə Avropa Şurasının müsabiqəsində qalib olaraq, "Ədliyyənin Kristal Tərəzisi" mükafatına layiq bilinmiş, həmçinin Dünya Bankı ədliyyə sisteminin müasirləşdirilməsinə dair ölkəmizdə həyata keçirdiyi layihələri ən uğurlularından hesab edərək bu sahədə vətəndaşlara daha yüksək keyfiyyətli xidmətlərin göstərilməsi məqsədilə innovasiyaların tətbiqinə görə nominasiyaların qalibi elan etmişdir.

Antikorrupsiya sahəsində digər yeniliklə də bölüşmək istərdim. Ölkə Prezidentinin təşəbbüsü ilə ASAN xidmət təsis edilmişdir. Bizim dildə bu abbrreviatura, "asan/sadə" deməkdir. Xidmətin əsas prinsipləri səmərəlilik, şəffaflıq, nəzakət, məsuliyyət, etik davranış qaydalarına riayət və rahatlıqdır. Onun məqsədi vətəndaşların hüquqi yardım almasının asanlaşdırılması, şəffaflığın təmin olunması, korrupsiya hallarının aradan qaldırılmasıdır.

Bu xidmətdə "bir qapı" prinsipini tətbiq etməklə, 230 müxtəlif, o cümlədən elektron xidmət göstərən 35 qurum bir binada yerləşir. Artıq 13 belə mərkəz fəaliyyət göstərir və hazırda xidmətin şəbəkəsi ölkə üzrə genişləndirilir. Eyni zamanda, səyyar ASAN xidmət mərkəzləri funksiyasını yerinə yetirən xüsusi avtobuslar, hətta qatar regionları dövr edir. 10 milyon əhalisi olan ölkəmizdə bu mərkəzlərə onların fəaliyyət göstərdikləri 5-6 il ərzində 23 milyondan çox müraciət olunub və vətəndaşların bəyənmə əmsalı 100 faizə yaxındır.

Qeyd etmək istərdim ki, bütün bu tədbirlər artıq 25 ildən çoxdur davam edən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, torpaqlarımızın 20 faizinin işğal olunduğu, bir milyondan artıq soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyü şəraitdə həyata keçirilmişdir.

**Hörmətli tədbir iştirakçıları,**

Şübhəsiz ki, antikorrupsiya sahəsində, həmçinin treninqlərin də müstəsna əhəmiyyəti vardır. Bu sahədə bir çox beynəlxalq təşkilatlarla, xüsusilə Avstriyanın Laksenburq şəhərində yerləşən Beynəlxalq Antikorrupsiya Akademiyası ilə sıx əməkdaşlıq edirik. Akademiya ilə tədris sahəsində əməkdaşlığa dair sazişlər imzalanmış və azərbaycanlı hüquqşünaslar bu gün orada tədris keçirlər.

Əldə olunan nailiyyətlərə baxmayaraq, hər zaman təkmilləşməyə ehtiyac vardır. Ona görə də beynəlxalq təcrübəni öyrənirik və xüsusilə bugünkü görüşümüzdə belə bir müzakirələrin aparılması və xarici həmkarlarımızla yaxşı təcrübələrin bölüşülməsi korrupsiyaya qarşı mübarizədə daha effektiv olmağa kömək edəcəkdir.

*Diqqətinizə görə minnətdaram.*

# Azərbaycan və Latviya arasında hüquqi əlaqələr inkişaf edir

**Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan hüquqi islahatlar çərçivəsində qabaqcıl xarici təcrübələrin öyrənilməsinə, beynəlxalq əlaqələrin inkişafına böyük önəm verilərək xarici ölkələrin, o cümlədən Avropa İttifaqı dövlətlərinin ədliyyə qurumları ilə səmərəli əməkdaşlıq həyata keçirilir. Ötən il Azərbaycan və Latviya Ədliyyə nazirliklərinin nümayəndə heyətlərinin qarşılıqlı səfərləri, iki qurum arasında əməkdaşlığa dair Anlaşma Memorandumunun imzalanması bu sahədə qarşılıqlı fəaliyyətin dərinləşdirilməsinə böyük təkan verib.**



*Riqada “Azadlıq” abidəsini ziyarət*

Memorandumun implementasiyası çərçivəsində nümayəndə heyətlərinin mübadiləsi aparılır, birgə tədris tədbirləri keçirilir, qarşılıqlı müsbət təcrübələr öyrənilir.

Əməkdaşlığın davamı olaraq Azərbaycanın ədliyyə naziri Fikrət Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti Latviyada səfərdə olub.

Səfər zamanı Azərbaycan və Latviya ədliyyə nazirləri Riqa şəhərində "Azadlıq" abidəsini ziyarət edib, Latviyanın müstəqilliyi uğrunda həlak olanların xatirəsini yad ediblər.

Latviyanın ədliyyə naziri Dzintars Rasnaçs ilə keçirilmiş görüşdə ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı, dövlət başçılarının qarşılıqlı səfərlərinin bu əlaqələrin möhkəmlənməsində xüsusi rolu qeyd edilib, iki ölkənin Ədliyyə nazirlikləri arasında əməkdaşlığın inkişafından məmnunluq ifadə olunub.

Dövlətimizin başçısının təsdiq etdiyi strateji yol xəritələrindən irəli gələn vəzifələrə uyğun olaraq mübahisələrin məhkəmədən kənar alternativ həllində mühüm rol oynayan mediasiya institutunun yaradılması prioriteti nəzərə alınaraq, nümayəndə heyətimiz bu ölkənin Mediasiya Şurasının rəhbərliyi ilə görüşüb. Görüşdə bu sahədə Latviyada işin təşkili ilə maraqlanılıb, mediasiyanın tətbiqi imkanları, onun vətəndaşlar üçün üstünlükləri, mediatorların hazırlanması və s. məsələlərlə bağlı təqdimat




*Azərbaycan və Latviya ədliyyə nazirlərinin görüşü*






*Məhkəmə qərarlarının icrası və probasiya sahəsində Latviya tərəfi ilə təcrübə mübadiləsinin aparılması, əyani təqdimatın keçirilməsi*

keçirilərək səmərəli fikir mübadiləsi aparılıb.

Ölkə Prezidentinin cəza siyasətinin humanistləşdirilməsinə dair Sərəncamına əsasən azadlıqdan məhrumetməyə alternativ cəzaların səmərəli icrasının təşkili məqsədilə Probasiya xidmətinin yaradılması, o cümlədən elektron nəzarət vasitələrinin tətbiqinə başlanılması nəzərə alınaraq bu sahədə zəngin təcrübəyə malik Latviyanın Dövlət Probasiya xidmətinin rəhbərliyi ilə görüş keçirilib, qurumun fəaliyyətinə dair müzakirələr aparılıb, xidmətin regional qurumları, elektron monitorinq sistemi ilə əyani tanış olunub.

Eyni zamanda məhkəmə qərarlarının səmərəli icrasının əhəmiyyəti nəzərə alınaraq, bu sahədə Latviyanın təcrübəsi öyrənilib, o cümlədən icra zamanı uşaq hüquqlarının qorunmasına dair yeni mexanizmlərin tətbiqi üzrə müzakirələr aparılıb və təqdimatlar keçirilib.

Həmçinin, səfər zamanı hər iki dövlətdə məhkəmə-hüquq sistemində aparılan islahatlar və yeniliklərdən bəhrələnmək imkanları araşdırılıb, ədliyyə fəaliyyətində "süni intellekt"in tətbiqi, vətəndaşlara xidmətlərin video-konfrans vasitəsilə göstərilməsi xüsusi maraq doğurub.

Tədbirlərdə ölkəmizin Latviyadakı səfiri Cavanşir Axundov iştirak edib.

# Səudiyyə Ərəbistanı ilə ədliyyə sahəsində əməkdaşlıq genişlənir



*Azərbaycan ədliyyə nazirinin Səudiyyə Ərəbistanı Krallığı ədliyyə nazirinin müavini ilə görüşü*

**Ölkəmiz tərəfindən İslam və ərəb dünyası ilə əlaqələrə xüsusi əhəmiyyət verilərək, Səudiyyə Ərəbistanı Krallığı ilə hüquqi sahədə əməkdaşlıq genişləndirilir. İki ölkənin Ədliyyə nazirlikləri tərəfindən əlaqələrin gücləndirilməsi məqsədilə əməkdaşlığa dair Anlaşma Memorandumunun imzalanması qərara alınıb.**

Bununla əlaqədar hazırlanmış Memorandum layihəsinin müzakirəsi və razılaşdırılması üçün Səudiyyə Ərəbistanı Krallığı ədliyyə nazirinin müavini Şeyx Dr. Əbdüləziz bin Abdullah Əl-



*İki ölkənin Ədliyyə nazirlikləri arasında əməkdaşlığa dair Anlaşma Memorandumu layihəsinin müzakirəsi və paraflanması*

Nasirin başçılıq etdiyi nümayəndə heyəti iyulun 23-25-də Azərbaycanda səfərdə olub.

Səfər zamanı Ədliyyə Nazirliyində Memorandum layihəsi üzərində məhsuldar müzakirələr keçirilib, ədliyyə nazirinin müavini Azər Cəfərov ilə ədliyyə və məhkəmə sistemində islahatlara, bu sahədə əməkdaşlığın prioritetlərinə və qarşılıqlı maraq doğuran məsələlərə dair faydalı fikir mübadiləsi aparılıb. Sənəd təkmilləşdirilərək paraflanıb və müvafiq razılaşma protokolu imzalanıb.

Ədliyyə naziri Fikrət Məmmədov Səudiyyə Ərəbistanı Krallığının nümayəndə heyəti ilə görüşüb.

Dövlətlərimiz və xalqlarımız arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafını vurğulayan nazir ümummilli lider Heydər Əliyevin və ölkə Prezidenti cənab İlham Əliyevin Səudiyyə Ərəbistanına səfərlərinin bu əlaqələrin inkişafına mühüm təkan verdiyini, hüquqi sahədə əlaqələrin möhkəmləndirilməsi üçün geniş imkanların olduğunu bildirib, sənədin tezliklə imzalanacağına əminliyini ifadə edib.

Ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini, siyasi əlaqələrin yüksək səviyyədə olduğunu vurğulayan qonaq respublikamızın hərtərəfli inkişafını təqdir edib, hüquqi əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu, Anlaşma Memorandumunun imzalanmasının qarşılıqlı fəaliyyətin dərinləşməsinə xidmət edəcəyini bildirib.

Nazir müavini Şeyx Dr. Əbdüləziz bin Abdullah Əl-Nasir ədliyyə və məhkəmə sahəsindəki islahatları təqdir edərək nümayəndə heyətlərinin qarşılıqlı



səfərlərinin və təcrübə mübadiləsinin aparılmasının hər iki tərəf üçün faydasını qeyd edib, Səudiyyə Ərəbistanı Krallığının ədliyyə nazirinin salamlarını çatdırıb.

Görüşdə həmçinin, dövlətlərimizin beynəlxalq təşkilatlar çərçivəsində də uğurlu əməkdaşlığı qeyd edilib, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin acı nəticələri diqqətə çatdırılaraq bu münaqişənin həllində Səudiyyə Ərəbistanının ölkəmizin haqlı mövqeyini hər zaman dəstəklədiyi vurğulanıb.

Qonaqlar nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olub, nümayəndə heyətinə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və Xocalı soyqırımı ilə bağlı materialları əks etdirən əyani vəsaitlər və disklər təqdim edilib.

Səfər çərçivəsində Səudiyyə Ərəbistanı Krallığının nümayəndə heyəti Ali Məhkəmənin və Yasamal Rayon Məhkəməsinin müasir binaları, elektron məhkəmə sistemi, Azərbaycan brendi olan və ədliyyənin də müvafiq xidmətlər göstərdiyi "ASAN xidmət"in fəaliyyəti, habelə Bakının müasir rəmzlərindən sayılan möhtəşəm Heydər Əliyev Mərkəzi ilə tanış olublar.

# Bakıda Konstitusiya Məhkəməsinin yaradılmasının 20 illik yubileyinə həsr olunan beynəlxalq konfrans keçirilib

**İyulun 6-da Bakıda Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin yaradılmasının 20 illik yubileyinə həsr olunan "Hüquqi dövlət və konstitusiya ədalət mühakiməsi: dəyərlər və prioritetlər" mövzusunda beynəlxalq konfrans keçirilib.**






Tədbirdə ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov iştirak edib.

Konfransda əvvəlcə Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.

Sonra Konstitusiya Məhkəməsinin 20 illik fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Konfransı açıq elan edən Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev Konstitusiya Məhkəməsinin yaradılmasının 20 illik yubileyinə həsr olunan beynəlxalq konfransın əhəmiyyətini yüksək qiymətləndirib, tədbirdə səmərəli müzakirələrin aparılacağına əminliyini bildirib.

Azərbaycan Respublikası Prezidentinin hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov dövlətimizin başçısı İlham Əliyevin konfrans iştirakçılarına ünvanlanan məktubunu oxuyub.

Sonra Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev çıxış edərək Konstitusiya nəzarəti orqanının fəaliyyətə başlamasından ötən 20 il ərzində görülən işlərdən və əldə olunan nailiyyətlərdən danışıb.

Azərbaycan Respublikası Milli Məclisi sədrinin birinci müavini Ziyafət Əsgərov Konstitusiya Məhkəməsinin yaradılmasının hüquqi dövlət quruculuğu, sosial dövlət və vətəndaş cəmiyyəti prizmasından mühüm əhəmiyyət daşıdığını vurğulayıb. Bildirib ki, hüquqi dövlət quruculuğu prosesində mühüm əhəmiyyət daşıyan hər üç amil Konstitusiya nəzarət mexanizmini daha da asanlaşdırır.

Avropa Şurası Venesiya Komissiyasının sədri Canni Bukikkio yenidən ölkəmizdə olmaqdan və Konstitusiya Məhkəməsinin 20 illik yubileyinə həsr olunan konfransda iştirak etməkdən məmnunluğunu bildirib. Konstitusiya Məhkəməsinin əsas missiyasının Konstitusiyanın sabitliyini və qanunun aliliyini təmin etmək olduğunu vurğulayan qonaq Venesiya Komissiyasının ölkəmizin müvafiq qurumları ilə səmərəli əməkdaşlıq etdiyini deyib.

Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin

(GİZ) "Cənubi Qafqazda hüquq sahəsində Avropa standartlarına yaxınlaşma" proqramının rəhbəri Tomas Meyer çıxışında bildirib ki, Konstitusiya Məhkəməsinin qərarları bir növ Konstitusiyanın mətninin ifadəsidir.

"Hüquq bərabərliyini təmin edən səmərəli institusional mexanizmlər" mövzusunda məruzə ilə çıxış edən Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Elmira Süleymanova 2018-ci ilin Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100, Konstitusiya Məhkəməsinin 20 illik yubileylərinin qeyd olunduğunu vurğulayaraq bu münasibətlə təbriklərini çatdırıb. Diqqətə çatdırılıb ki, Azərbaycanda Konstitusiya Məhkəməsi ilə Ombudsman təsisatı arasında formalaşmış konstruktiv əməkdaşlıq insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində praqmatik mexanizm təşkil edir.

Sonra konfrans işini digər çıxışlarla davam etdirib.

# Ədliyyə naziri Göyçayda vətəndaşları qəbul edib

**Ölkə Prezidenti cənab İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması barədə tapşırıqlarına uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların bölgələrdə qəbuluna xüsusi diqqət yetirilir.**



Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq iyulun 4-də ədliyyə naziri Fikrət Məmmədov Göyçay rayonunda Göyçay, Ağdaş və İsmayıllı rayonlarından olan vətəndaşların qəbulunu keçirib.

Qəbuldan əvvəl nazir və Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Mehdi Səlimzadə ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstələri qoyub, əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə öz həllini tapıb, digər müraciətlər üzrə nazirliyin qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Səfər zamanı ədliyyə naziri, həmçinin yerli ədliyyə və məhkəmə orqanlarının fəaliyyəti və iş şəraiti ilə tanış olub, ədliyyə işçiləri və hakimlərlə müşavirə keçirib.

Müşavirədə ədliyyə fəaliyyətinin təkmilləşdirilməsi, ədalət mühakiməsinin səmərəliliyinin artırılması, cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı dövlət başçısının tapşırıqlarından irəli gələn vəzifələr diqqətə çatdırılıb, ədliyyə və məhkəmə sisteminin müasirləşməsi, qabaqcıl texnologiyaların tətbiqi, məhkəmə qərarlarının icrası işinin yaxşılaşdırılması, probasiya xidmətinin fəaliyyətinin təşkili ilə bağlı tapşırıq və tövsiyələr verilib, şəffaflığın və vətəndaş məmnunluğunun təmin olunması, korrupsiyaya şərait yaradan halların yolverilməzliyi qeyd olunub.

# İcra və Probasiya xidmətlərinin fəaliyyətinə dair müşavirə keçirilib




**İyulun 20-də Ədliyyə Nazirliyində icra və probasiya xidmətlərinin bütün yerli qurumlarının rəhbərlərinin iştirakı ilə 2018-ci ilin birinci yarımilində məhkəmə qərarlarının, o cümlədən azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaların icrası üzrə görülmüş işlərin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş müşavirə keçirilib.**

Tədbiri giriş sözü ilə açan ədliyyə nazirinin müavini Vilayət Zahirov ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunması çərçivəsində Xalq Cümhuriyyətinin və Azərbaycan ədliyyəsinin 100 illik yubileyləri münasibətilə nazirlik tərəfindən keçirilən silsilə tədbirlərdən bəhs edib, nazirliyin icra və probasiya qurumlarının ədalət mühakiməsinin səmərəliliyinin artırılmasında, qanunun aliliyinin, insan hüquq və azadlıqlarının təmin olunmasında, azadlıqdan məhrumetməyə alternativ cəzaların icrasında və məhkumların cəmiyyətə inteqrasiyasında müstəsna rolunu qeyd edib.

Sonra İcra baş idarəsinin rəisi - Baş icra məmuru Nurəddin Mustafayev hesabat məruzəsi ilə çıxış edib.

Bildirilib ki, əhalinin məhkəmələrə inamının təzahürü olaraq son illər baxılan işlərin sayının çoxalması ilə icra xidmətində də iş həcmi xeyli artıb, 2018-ci ildə icrası təmin edilən işlərin sayı 320 minə yaxın təşkil edib, fiziki, hüquqi şəxslərə və dövlət büdcəsinə, o cümlədən vergi borcları ilə bağlı 190 milyon manata yaxın vəsait ödətdirilib. İcra sənədlərinin icrasından qərəzli boyun qaçıran, icra məmurlarının qanuni tələblərini yerinə yetirməyən 2.392 nəfər inzibati məsuliyyətə cəlb edilib, o cümlədən 1.489 şəxs məhkəmələr tərəfindən inzibati qaydada həbs olunub, inzibati məsuliyyətə cəlb olunmaya dair məhkəmə qərarından nəticə çıxarmayan 220 şəxs barəsində cinayət işi başlanılıb.

Həmçinin, 8 min borclunun ölkədən getmək hüququ müvəqqəti məhdudlaşdırılıb, 2100-ə yaxın şəxsin məhdudiyyəti isə məhkəmə qərarını icra etdiklərinə görə götürülüb.

İcra işinin səmərəliliyinin artırılması üzrə görülən tədbirlər, o cümlədən təsirli icra mexanizmlərinin tətbiqi nəticəsində icra işləri ilə bağlı şikayət edən vətəndaşların sayı 2 dəfə, bilavasitə qəbula gələn şəxslərin sayı isə 21 faiz azalıb.

Diqqətə çatdırılıb ki, icra işinin səmərəli təşkili üzrə əlavə tədbirlər görülür, icra qanunvericiliyi təkmilləşdirilir, İcra Məcəlləsinin layihəsi işlənib hazırlanır, müasir İKT-lərin və elektron xidmətlərin tətbiqi dairəsi genişləndirilir. İcra orqanlarının fəaliyyətində operativliyin və şəffaflığın təmin olunması üçün "Elektron icra" sisteminin icra qurumlarında tətbiqinə başlanılıb.

Müşavirədə həmçinin Probasiya xidmətinin birinci yarımildəki fəaliyyətinə dair məlumat dinlənilib.

Hesabat məruzəsi ilə çıxış edən Probasiya xidmətinin rəisi - Baş probasiya məmuru Akşin Ziyadov azadlıqdan məhrum etmə cəzasının tətbiqinin azaldılması və daha çox alternativ cəzalara üstünlük verilməsi məqsədilə dövlət başçısının cəza siyasətinin humanistləşdirilməsinə dair 2017-ci il 10 fevral tarixli Sərəncamı ilə təsis edilmiş Probasiya xidmətinin işinin müasir tələblər səviyyəsində qurulması, ictimai işlər növündə cəzanın formal icrası təcrübəsinin qarşısının alınması, cəzaların icrası zamanı müasir elektron nəzarət vasitələrinin tətbiqi ilə bağlı görülən işlər barədə danışıb.

Bildirilib ki, azadlıqdan məhrumetməyə alternativ cəzaların icrası diqqətdə saxlanılaraq 2018-ci ilin birinci yarımilində 5.557 şəxs qeydiyyatdan çıxarılmış, onlardan 3.198 məhkumun cəza müddəti başa çatıb, 27 nəfər ölkə başçısının Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə imzaladığı Sərəncamı ilə əfv olunub. Cərimə və islah işləri cəzalarının icrası ilə bağlı dövlət büdcəsinə ödənilən vəsaitin məbləği artaraq 1,1 milyon manatı ötüb.

Eyni zamanda, ictimai işlərin keçirildiyi yerlərdə məhkumların işlədikləri vaxtlarda mütəmadi monitorinqlər aparılıb. Bu sahədə yerli icra hakimiyyəti orqanları ilə səmərəli işgüzar münasibətlər qurulub. Hesabat dövründə 254 şəxs barədə ictimai işlər növündə cəzanın və inzibati tənbehin icrası təmin edilib.

Qeyd olunub ki, 2017-ci il 17 oktyabr tarixli Qanunla Cinayət Məcəlləsinə edilmiş dəyişikliklərlə bir çox əməllərin dekriminallaşdırılması yüzlərlə məhkumun cəzalardan azad olunmasına və ya yüngülləşdirilməsinə səbəb olub. Bununla bağlı nazirliyin Probasiya xidməti tərəfindən yeni qanunun təsiri altına düşən şəxslərin dairəsi müəyyən olunaraq müvafiq təqdimatlar əsasında məhkəmələr tərəfindən 951 məhkum cəzadan azad edilib, 226 məhkumun isə cəza müddəti azaldılıb və ya daha yüngül cəza ilə əvəz edilib.

Müşavirədə azadlıqdan məhrumetməyə alternativ cəzaların icrasında elektron nəzarət vasitələrinin tətbiqi qeyd olunaraq, cari ilin aprelində Nazirlər Kabineti tərəfindən elektron nəzarət vasitələrinin siyahısının və onların tətbiqi qaydalarının təsdiq edildiyi, Probasiya xidmətində müasir avadanlıqlarla təchiz olunmuş Elektron monitorinq mərkəzinin istifadəyə verildiyi bildirilib. Qeyd edilib ki, 69 məhkuma elektron qolbaq tətbiq olunub, onlardan 7 məhkumdan cəza müddəti başa çatdığı üçün elektron qolbaqlar çıxarılıb.

İclasda görülmüş işlərlə yanaşı, nöqsan və çatışmazlıqlar qeyd olunub, bəzi icra məmurları tərəfindən vəzifə borclarına laqeyd münasibət bəslənilməsi, icra intizamının pozulması, işlərin hərəkətsiz saxlanılması, cəzanın çəkilməsindən boyun qaçıran şəxslərin vaxtında inzibati məsuliyyətə cəlb olunmaması və digər neqativ hallar diqqətə çatdırılaraq onların aradan qaldırılması tələb edilib.

Həmçinin, islah, cərimə və ictimai işlər növündə cəzaların icrasına diqqətin artırılması, məhkumun cəzadan yayınmasının qarşısının alınması, onlarla aparılan islah və tərbiyə işinin keyfiyyətinin artırılması, probasiya nəzarətinin səmərəli təşkili ilə bağlı tapşırıqlar verilib.

Mövcud problemlərlə bağlı yerli icra və probasiya qurumlarının rəhbərləri dinlənilib, nöqsanların səbəb və şəraitinin aradan qaldırılması yolları ətraflı təhlil edilib.

Müşavirəyə yekun vuran nazir müavini V.Zahirov məhkəmə qərarlarının, o cümlədən azadlıqdan məhrumetməyə alternativ cəzaların icrası işinin səmərəliliyinin artırılması, onların vaxtında və dürüst icrasının təmin olunması, tabe qurumların fəaliyyətinə nəzarətin gücləndirilməsi, tələbkarlığın artırılması ilə bağlı konkret göstərişlər verib, dövlət başçısının Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunan iclasında verdiyi tapşırıqları xüsusilə diqqətə çatdıraraq korrupsiyaya şərait yaradan halların yolverilməzliyini, etik davranış qaydalarına dönmədən əməl olunmasını, vətəndaşlara daim qayğılı münasibət bəslənilməsinin və layiqli xidmət göstərilməsinin vacibliyini vurğulayıb.

# Dünya Səhiyyə Təşkilatının baş direktoru Ədliyyə Nazirliyinin Beynəlxalq Təlim Mərkəzi ilə tanış olub

**Ölkə Prezidenti cənab İlham Əliyevin penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı tapşırıqlarına uyğun olaraq məhkumların və təqsirləndirilən şəxslərin tibbi və dərman təminatı yaxşılaşdırılır. Bu sahədə beynəlxalq təşkilatlarla vərəmə qarşı effektiv mübarizə aparılaraq, müsbət nəticələrə nail olunub. Penitensiar sistemdə vərəmlə mübarizədə ölkəmizin nailiyyətlərinə beynəlxalq maraq artaraq bir çox dövlətlər müsbət təcrübəmizdən bəhrələnirlər.**

Bu məqsədlə ölkəmizin praktiki olaraq cəzaçəkmə müəssisələrində bu spesifik təcrübəsini yaymaq üçün dünyada ilk dəfə 2012-ci ildə Ədliyyə Nazirliyi İxtisaslaşdırılmış müalicə müəssisəsinin nəzdində Vərəm üzrə Təlim Mərkəzi yaradılıb. 2014-cü ildə Dünya Səhiyyə Təşkilatı (DST) Avropa üzrə Regional Bürosu tərəfindən ona



"Həbsxanalarda vərəmə nəzarət və profilaktika üzrə DST ilə Əməkdaşlıq Mərkəzi" beynəlxalq statusu verilib və onun vərəmlə mübarizədə Azərbaycan təcrübəsinin digər dövlətlərə yayılmasında və öyrənilməsində səmərəli fəaliyyəti nəzərə alınaraq cari ildə bu status növbəti dörd il müddətinə uzadılıb.

Ölkəmizdə səfərdə olmuş Dünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesus və onu müşayiət edən şəxslər Beynəlxalq Təlim Mərkəzinə maraq göstərərək səfər ediblər. Qonaqlar mərkəzin fəaliyyəti, müasir şəraiti, tədris otaqları, həmçinin video-konfrans vasitəsilə distant treninqin təşkili ilə tanış olublar.

Tədbirdə ədliyyə nazirinin müavini, Penitensiar xidmətin rəisi Ceyhun Həsənov, Tibb baş idarəsinin rəisi Rəfail Mehdiyev və nazirliyin digər aidiyyəti məsul şəxsləri iştirak ediblər.

Tanışlıq zamanı ölkəmizin penitensiar müəssisələrində tibbi təminatın müasirləşdirilməsi, vərəmlə mübarizə sahəsində həyata keçirilən tədbirlər və bu sahədə beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlığa dair təqdimat keçirilib.

Tibb baş idarəsinin rəisi R.Mehdiyev məlumat verib ki, Azərbaycanda dövlətimizin güclü siyasi iradəsinə uyğun olaraq ümumbəşəri sosial bəla olan vərəmlə mübarizə daim diqqətdə saxlanılır, bu sahədə DST-ın tövsiyələrinə uyğun strategiyalar hazırlanıb, xüsusi qanun qəbul olunub, beynəlxalq təşkilatlarla əlaqəli surətdə müvafiq proqramlar və layihələr həyata keçirilib, o cümlədən penitensiar müəssisələrdə bu xəstəliyə qarşı mübarizəyə xüsusi önəm verilib.

Bu məqsədlə məhkumlara yüksək ixtisaslı tibbi yardımın göstərilməsi sahəsində BQXK ilə səmərəli əməkdaşlıqda tibb xidməti, məhkumların dərman təminatı əsaslı şəkildə yaxşılaşdırılıb, penitensiar müəssisələr müasir tibb avadanlıqları ilə təchiz olunub.

Vərəmli məhkumlar üçün innovativ laborator və diaqnostik avadanlıqla təchiz edilmiş ayrıca müalicə müəssisəsinin açılması bu xəstəliklə mübarizədə böyük əhəmiyyət kəsb edib.

Bu sahədə DST və BQXK ilə birgə fəaliyyət çox müsbət nəticələr verib, vərəmin dəqiq diaqnozunu ən qısa vaxtda müəyyən etməyə imkan verən yeni ekspress-test dünyada ilk dəfə olaraq penitensiar müəssisələrdə məhz Azərbaycanda tətbiq olunub.

Həyata keçirilən kompleks tədbirlər hesabına, cəzaçəkmə müəssisələrində vərəmin müalicəsi üzrə göstəricilər DST-ın müəyyən etdiyi hədəfləri aşaraq dərmanlara həssas vərəmin müalicəsi üzrə 92 faiz, müalicəyə çətin tabe olan dərmana davamlı vərəmin müalicəsi üzrə isə 78 faiz nəticələrə nail olunub ki, bu da dünyada ən yüksək göstəricilərdəndir. Bunun nəticəsi olaraq, son beş ildə cəzaçəkmə müəssisələrində vərəmə yoluxma halları 2 dəfə, vərəmdən ölüm isə 1995-ci illə müqayisədə 105 dəfə azalıb.

Həmçinin bildirilib ki, Azərbaycanın bu sahədə nailiyyətləri Dünya Səhiyyə Təşkilatı, Qlobal Fond, BQXK, "Vərəmi Dayandırmaq üzrə Tərəfdaşlıq" və digər beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir, ölkəmizin müsbət təcrübəsi örnək kimi dəyərləndirilərək digər dövlətlərə tövsiyə edilir, habelə BMT-nin İqtisadi və Sosial Şurasında məşvərətçi statusuna malik olan ABŞ-ın İslah Müəssisələri və Həbsxanalar Beynəlxalq Assosiasiyası tərəfindən Səhiyyə Mükafatına layiq bilinib.

Ötən dövrdə Beynəlxalq təlim mərkəzində Qərbi Avropa, Asiya, Afrika, Mərkəzi Amerika və MDB dövlətlərinin Ədliyyə, Səhiyyə və Daxili İşlər nazirliklərini, penitensiar müəssisələrin tibb xidmətlərini, qeyri-hökumət və beynəlxalq təşkilatları

təmsil edən nümayəndə heyətləri üçün 8 beynəlxalq treninq keçirilib, Azərbaycan təcrübəsini öyrənmək üçün Avropa Şurası, DST və BQXK-nın xətti ilə 18 tanışlıq səfəri təşkil olunub. Ümumilikdə isə, son illər 20 dövlətdən 200-dən çox nümayəndə Bakıda səfərdə olub və müsbət təcrübəmizdən bəhrələniblər. Artıq bəzi ölkələrdə bizim təcrübəyə uyğun modellərin tətbiqinə başlanılıb.

Ətraflı məlumata görə minnətdarlığını bildirən DST-ın baş direktoru T.A.Qebreyesus respublikamızın vərəmlə mübarizədə əldə etdiyi yüksək nailiyyətlərdən heyranlığını ifadə edib, bu münasibətlə Azərbaycan tərəfini təbrik edərək bu müsbət nəticələrə nail olunmasında dövlətimizin güclü siyasi iradəsini vurğulayıb.

Qonaq həmçinin, ölkəmizin bu sahədə beynəlxalq təşkilatlarla, o cümlədən DST ilə səmərəli əməkdaşlığını təqdir edib, vərəmlə mübarizədə Azərbaycanın tətbiq etdiyi standartların ən yaxşı təcrübə təşkil etdiyini, bunun üçün respublikamızın müsbət təcrübəsinin dünyada daha geniş yayılmasının önəmini qeyd edərək gələcəkdə təlim mərkəzinə hərtərəfli köməklik göstərəcəyini və əlaqələrimizin genişləndirilməsi üçün əlindən gələni əsirgəməyəcəyini bildirib.

DST-ın baş direktoru Mərkəzlə tanışlıqdan xoş təəssüratlarla ayrılıb.

Tədbirdə Azərbaycanın Cenevrədəki BMT Bölməsində və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi, səfir Vaqif Sadıqov iştirak edib.

# Notarius korpusunun komplektləşdirilməsi məqsədilə ardıcıl tədbirlər davam etdirilir

**Ölkə iqtisadiyyatının inkişafında və vətəndaşların mülki hüquq münasibətlərindən irəli gələn məsələlərin həllində mühüm rol oynayan notariat orqanlarının fəaliyyəti təkmilləşdirilir, onların səlahiyyətləri genişləndirilir. Beynəlxalq təcrübəyə uyğun xüsusi notariat institutu yaradılaraq geniş tətbiq olunur, həmçinin notariat kontorlarını vahid şəbəkədə birləşdirən "Elektron notariat" informasiya sistemi istifadəyə verilib ki, bununla da notariat hərəkətlərinin rəsmiləşdirilməsi xeyli sadələşdirilib.**

Bu sahədə islahatlara və yeniliklərə beynəlxalq maraq artaraq Azərbaycanın nailiyyətləri nümunəvi qiymətləndirilir, bir çox dövlətlər müsbət təcrübəmizdən bəhrələnirlər.

Notariat fəaliyyətinin daha səmərəli təşkili, əhaliyə göstərilən hüquqi xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədilə ardıcıl tədbirlər davam etdirilir.

Dövlət başçısı cənab İlham Əliyevin təşəbbüsü ilə yaradılmış, ictimai xidmətlərin müasir modeli olan "ASAN xidmət" mərkəzlərində notariat sahəsində də əhaliyə səmərəli xidmətlər göstərilir, həmin mərkəzlərdə verilən sənədlərin 40 faizdən çoxu məhz notariat orqanlarının payına düşür.

Yüksək vətəndaş məmnunluğu doğuran, paytaxtda və bölgələrdə fəaliyyət göstərən "ASAN xidmət" şəbəkəsi genişləndirilərək Ağcabədi, Tovuz, Şamaxı, Kürdəmir və Cəlilabad rayonlarında da yeni mərkəzlərin təsis edilməsi nəzərdə tutulur.

Ədliyyə Nazirliyi tərəfindən həmin mərkəzlərdə təşkil olunacaq notariat kontorlarında, habelə hazırda Şirvan şəhəri, Beyləqan, Xaçmaz, Lənkəran, Salyan və Yevlax rayonlarında vakant olan notarius vəzifələrində fəaliyyət göstərmək məqsədilə şəhadətnamə almaq istəyən "Notariat haqqında" Qanunun tələblərinə cavab verən ali hüquq təhsilli Azərbaycan Respublikası vətəndaşları üçün sənədlərin qəbulu elan olunur.

Test imtahanında iştirak etmək arzusunda olan şəxslər sənədlərini 2018-ci ilin avqust ayının 1-dən etibarən Ədliyyə Nazirliyinin Qeydiyyat və notariat baş idarəsinə (Bakı şəhəri, Azadlıq prospekti, 72) bütün iş günləri təqdim edə bilərlər.

Xatırladırıq ki, "Notariat haqqında" Qanunun və "Notariat fəaliyyəti ilə məşğul olmaq məqsədi ilə şəhadətnamə almaq üçün imtahanın və müsahibələrin keçirilməsi Qaydası"nın tələblərinə uyğun olaraq test imtahanından uğur qazanmış namizədlər növbəti mərhələ olan müsahibəyə buraxılırlar. Müsahibəni müvəffəqiyyətlə başa vuranlar isə Ədliyyə Akademiyasında icbari təlimə cəlb olunurlar, bu zaman onlar həmçinin, notariat fəaliyyəti üzrə təcrübə də keçirlər. İcbari təlimin yekununda aparılan qiymətləndirmənin nəticəsi üzrə notariat fəaliyyəti ilə məşğul olmaq üçün şəhadətnamə verilir.

Tələb olunan sənədlərin siyahısı, imtahan, müsahibə və icbari təlimin keçirilməsi qaydaları ilə nazirliyin internet saytında (www.justice.gov.az) tanış olmaq, habelə 404-42-28, 404-42-29 nömrəli əlaqə telefonları vasitəsilə məlumat almaq mümkündür.

Test imtahanının vaxtı və yeri barədə əlavə informasiya veriləcəkdir.

# Hakimlərin Seçki Komitəsinin məlumatı

**Ölkəmizdə məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə görülən tədbirlər çərçivəsində hakim vəzifəsinə namizədlərin müasir beynəlxalq standartlar səviyyəsində, tam şəffaf şəraitdə seçilməsi prosesi davam edir.**

Test üsulu ilə, habelə yazılı və şifahi imtahanlardan keçərək, bir il müddətində davam edən tədris kursunu, məhkəmələrdə stajkeçməni başa vurmuş və tədrisin yekunu üzrə yazılı imtahanı vermiş 123 nəfər hakimliyə namizədin peşə hazırlığının yoxlanılması məqsədilə şifahi imtahan keçirilib.

Hakimlərin Seçki Komitəsinin iclasında şifahi imtahanın nəticələri müzakirə edilib, 109 nəfər hakimliyə namizədin növbəti mərhələdə - yekun müsahibədə iştirakı ilə bağlı qərar qəbul olunub.

# Yubileyə həsr olunmuş futbol turniri









**Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunmuş cari ildə Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi münasibətilə respublikamızda silsilə tədbirlər davam olunur. Əlamətdar haldır ki, 1918-ci ildə cümhuriyyətlə eyni gündə təsis olunmuş Azərbaycan ədliyyəsinin bu il noyabrın 22-də 100 illiyi tamam olur.**

Bu münasibətlə nazirlik üzrə xüsusi tədbirlər planı təsdiq edilərək ədliyyə orqanlarında yığıncaqlar, dəyirmi masalar təşkil olunur, Cümhuriyyətin və ədliyyənin tarixinə dair Ədliyyə Akademiyasında xüsusi mövzular tədris edilir, gənc ədliyyə işçiləri tərəfindən mütəmadi tarix muzeyləri, həmçinin nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olunur.

Eyni zamanda, bir sıra kütləvi-mədəni və idman tədbirləri, o cümlədən respublika miqyaslı, müxtəlif növdən (mini futbol, masaüstü tennis, şahmat, veloyürüş və offroad yürüşü) yarışlar keçirilir.

Azərbaycan Xalq Cümhuriyyətinin və Azərbaycan ədliyyəsinin 100 illik yubileylərinə həsr olunmuş Ədliyyə Nazirliyinin Bakı şəhəri və respublikanın digər rayon (şəhər) icra qurumları arasında mini futbol turniri keçirilib və 3 ay davam edən 16 komandanın iştirak etdiyi oyunlar iyulun 7-də yekunlaşıb.

Həmin gün keçirilmiş final oyununda Bakı şəhəri Xəzər rayon icra və probasiya şöbəsi yarışın qalibi olub, Nəsimi rayon icra və probasiya şöbəsi 2-ci, Gəncə şəhəri üzrə icra idarəsi isə 3-cü yerə çıxıblar.

Final oyununu nazirliyin əməkdaşları və digər tamaşaçılar böyük maraqla izləyib, sonda qaliblər diplomlar və medallarla təltif olunublar.

Yubileylə bağlı tədbirlər davam etdirilir, bu məqsədlə tabe qurumlara təşkilati və metodiki köməkliyin göstərilməsi diqqətdə saxlanılır.

### "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişikliklər edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYA QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 156-cı maddəsini rəhbər tutaraq **qərara alır:**

"Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, N 2, maddə 69; 2016, N 10, maddə 1600) aşağıdakı dəyişikliklər edilsin:

1. 1.0.22-ci maddədən "standartlar, o cümlədən Azərbaycan Respublikasının dövlət standartları, sahə standartları, texniki şərtlər," sözləri və "texniki-iqtisadi məlumatların dövlət təsnifatı," sözləri çıxarılsın.

2. 29.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"29.2. Bir və ya bir neçə normativ hüquqi aktda dəyişikliklər edildikdə, həmçinin bir və ya bir neçə normativ hüquqi akt ləğv edildikdə, həmin dəyişiklikləri və ya ləğvetməni nəzərdə tutan aktın adında dəyişikliklər edilən və ya ləğv edilən normativ hüquqi aktın (aktların) adı (adları) göstərilməlidir.".

3. 70.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"70.3. Azərbaycan Respublikasının Milli Məclisində dövlətlərarası və Azərbaycan Respublikasının qanunlarından fərqli qaydalar nəzərdə tutan hökumətlərarası müqavilələrin təsdiq və ləğv edilməsi barədə, uyğunlaşdırma məqsədi ilə hazırlanmış, həmçinin ad və digər texniki xarakter daşıyan dəyişiklikləri (müddət, məbləğ, yaş senzi ilə bağlı, həmçinin subyektlərin hüquqi vəziyyətinə təsir edən, hüquq məsuliyyətini yaradan və ya aradan qaldıran, yüngülləşdirən və ya ağırlaşdıran dəyişikliklər istisna olmaqla) nəzərdə tutan qanun layihələrinə bir oxunuşda, digər qanun layihələrinə, həmçinin Konstitusiya qanunu layihələrinə isə üç oxunuşda baxılır.".

4. 71.2-ci maddədə "üçüncü" sözü "yekun" sözü ilə əvəz edilsin.

5. 75.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"75.1. Ad və ya rəqəm dəyişiklikləri, həmçinin normativ hüquqi aktın qəbul edilməsi ilə əlaqədar bir neçə normativ hüquqi aktda dəyişikliklərin edilməsi zərurətinin yarandığı hallar (bu Konstitusiya Qanununun 29.2-ci maddəsinin tələbləri nəzərə alınmaqla) istisna olmaqla, bir normativ hüquqi akt yalnız bir normativ hüquqi aktda dəyişikliklər edə bilər. Bu halda dəyişikliklər edilməli olan normativ hüquqi aktların sayı çox olduqda, həmin dəyişikliklərin bir neçə normativ hüquqi akt çərçivəsində edilməsinə yol verilir.".

6. 76.1-ci maddədə "və ya onların struktur elementləri (bölmələr, fəsillər, maddələr, hissələr və s.)" sözləri "(onların struktur elementləri isə bu Konstitusiya Qanununun 32-ci maddəsinin tələblərinə uyğun olaraq)" sözləri ilə əvəz edilsin.

7. Aşağıdakı məzmunda 76.3-cü maddə əlavə edilsin:

"76.3. Ad və ya rəqəm dəyişiklikləri, həmçinin normativ hüquqi aktın qəbul edilməsi ilə əlaqədar bir neçə normativ hüquqi aktın ləğv edilməsi zərurətinin yarandığı hallar (bu Konstitusiya Qanununun 29.2-ci maddəsinin tələbləri nəzərə alınmaqla) istisna olmaqla, bir normativ hüquqi akt yalnız bir normativ hüquqi aktı ləğv edə bilər. Bu halda ləğv edilməli olan normativ hüquqi aktların sayı çox olduqda, ləğvetmənin bir neçə normativ hüquqi akt çərçivəsində edilməsinə yol verilir.".

8. 83-cü maddə üzrə:

8.1. Aşağıdakı məzmunda 83.1-1-ci maddə əlavə edilsin:

"83.1-1. Azərbaycan Respublikasının Konstitusiyasında nəzərdə tutulmuş hallarda Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq olunması nəzərdə tutulan Azərbaycan Respublikasının Prezidentinin fərmanları Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edildikdən sonra 24 saat müddətində rəsmi dərc edilməlidir.";

8.2. 83.4-cü maddədə "83.1-ci və 83.2-ci" sözləri "83.1-ci, 83.1-1-ci və 83.2-ci" sözləri ilə əvəz edilsin.

9. 85.3-cü maddədə "30 gün" sözlərindən əvvəl "ən azı" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 12 iyun 2018-ci il.*
*N 1174-VKQD*

## ”Notariat haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Notariat haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 1, maddə 10, N 6, maddə 414; 2001, N 5, maddə 293, N 11, maddə 687, N 12, maddə 740; 2002, N 5, maddə 241, N 6, maddə 328, N 12, maddə 706; 2004, N 5, maddə 318; 2005, N 4, maddə 281, N 8, maddə 699, N 10, maddə 903, N 11, maddə 993; 2007, N 1, maddə 4, N 2, maddə 69, N 8, maddə 745, N 11, maddələr 1053, 1075; 2008, N 6, maddə 462, N 7, maddə 602; 2009, N 1, maddə 5, N 7, maddə 517, N 11, maddə 878; 2010, N 7, maddə 597, N 11, maddə 938; 2011, N 4, maddə 258, N 12, maddə 1098; 2012, N 10, maddə 946; 2013, N 11, maddə 1271; 2014, N 11, maddə 1353; 2015, N 5, maddə 487; 2016, N 1, maddə 11, N 7, maddə 1243, N 12, maddə 2025; 2017, N 2, maddə 148, N 12 (I kitab), maddə 2236) 64-cü maddəsinə aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

"Notarius və ya qanunla müəyyən edilmiş hallarda bu cür notariat hərəkəti etməyə hüququ çatan digər vəzifəli şəxslər elektron informasiya sistemləri və ya ehtiyatları, o cümlədən internet informasiya ehtiyatları vasitəsilə əldə edilmiş məlumat və ya sənədlərin surətlərinin düzgünlüyünü təsdiq edirlər.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 31 may 2018-ci il.*
*N 1157-VQD*

## ”Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 955-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

"Qeyri-hökumət təşkilatları (ictimai birliklər və

fondlar) haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 10, maddə 710; 2001, N 9, maddə 576, N 11, maddə 675; 2003, N 1, maddə 16; 2005, N 4, maddə 278, N8, maddə 684, N 10, maddə 908; 2007, N 11, maddələr 1049, 1053; 2008, N 8, maddə 699; 2009, N 7, maddə 517, N 8, maddə 611; 2010, N 4, maddə 265; 2013, N 3, maddə 216; 2014, N 2, maddə 79, N 11, maddə 1359) 2.3-cü maddəsinə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Azərbaycan Respublikasının Silahlı Qüvvələrində qeyri-hökumət təşkilatlarının yaradılması və fəaliyyəti qadağandır.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 12 iyun 2018-ci il.*
*N 1183-VQD*

## "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 955-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

"Siyasi partiyalar haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, N 11, maddə 387, N 12, maddə 454; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, N 3, maddə 226; 2001, N 11, maddə 683; 2002, N 8, maddə 463; 2004, N 2, maddə 57, N 5, maddə 321, N 8, maddə 598; 2005, N 4, maddə 278, N 6, maddə 464; 2006, N 3, maddə 225; 2007, N 11, maddələr 1049, 1053; 2010, N 4, maddə 276; 2012, N 5, maddə 414; 2014, N 11, maddə 1332; 2015, N 4, maddə 366; 2017, N 5, maddə 684) 4-cü maddəsinə aşağıdakı məzmunda altıncı hissə əlavə edilsin:

"Azərbaycan Respublikasının Silahlı Qüvvələrində siyasi partiyaların yaradılması və fəaliyyəti qadağandır.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 12 iyun 2018-ci il.*
*N 1184-VQD*

## Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 8 (II kitab), maddə 585; 2001, N 7, maddə 455; 2002, N 1, maddə 9, N 5, maddə 233, N 8, maddə 463; 2003, N 6, maddə 276; 2004, N 5, maddə 321, N 7, maddə 505, N 8, maddə 598, N 10, maddə 761, N 11, maddə 890; 2005, N 1, maddə 4, N 4, maddə 278, N 6, maddə 462, N 8, maddə 686, N 10, maddə 874, N 12, maddə 1079; 2006, N 1, maddə 3, N 2, maddə 64, N 5, maddə 390, N 10, maddə 847, N 11, maddə 929, N 12, maddə 1032; 2007, N 2, maddələr 65, 68, N 6,

maddə 560, N 7, maddə 712, N 8, maddə 756, N 11, maddə 1049, N 12, maddə 1221; 2008, N 6, maddə 462, N 7, maddələr 606, 607, N 12, maddələr 1045, 1049; 2009, N 5, maddə 315, N 7, maddə 517, N 12, maddə 966; 2010, N 3, maddələr 171, 173, 178, N 7, maddə 593, N 12, maddə 1058; 2011, N 6, maddə 480, N 7, maddələr 589, 599; 2012, N 7, maddə 674, N 11, maddə 1062, N 12, maddə 1215; 2013, N 2, maddə 77, N 6, maddələr 616, 626, N 7, maddə 786, N 11, maddə 1265, N 12, maddə 1493; 2014, N 2, maddələr 90, 102, N 4, maddələr 328, 344, N 6, maddə 600, N 11, maddələr 1354, 1362; 2015, N 4, maddə 342, N 5, maddə 511, N 11, maddələr 1270, 1288; 2016, N 2 (II kitab), maddə 218, N 10, maddə 1607, N 12, maddələr 2020, 2031, 2034, 2039; 2017, N 5, maddə 751, N 12 (I kitab), maddələr 2232, 2267; Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli 1111-VQD nömrəli və 1116-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 147.1.3-cü maddədə "yaxud cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin" sözləri "cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin, yaxud cəzanın çəkilməsinin təxirə salınmasının" sözləri ilə əvəz edilsin.

2. 147.2.3-cü maddədə, 152-ci maddənin adında, 152.1-ci maddənin birinci cümləsində, 152.2-ci maddədə, 152.3-cü maddənin birinci cümləsində, 152.4-cü maddənin birinci və ikinci cümlələrində, 153.2.11-ci və 153.3.4-cü maddələrdə "və ya cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin" sözləri ", cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin və ya cəzanın çəkilməsinin təxirə salınmasının" sözləri ilə əvəz edilsin.

3. 419.1-ci maddədə "baxaraq" sözündən sonra "müraciətin dəlillərindən asılı olmayaraq" sözləri əlavə edilsin və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Kassasiya instansiyası məhkəməsi, kassasiya şikayətinin və ya kassasiya protestinin baxışının nəticələri buna əsas verərsə, barəsində kassasiya müraciəti olmayan məhkum edilmiş şəxslərin də xeyrinə yekun qərar qəbul edir.".

4. 419.10.4-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 419.10.5-ci maddə əlavə edilsin:

"419.10.5. hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında icraat üzrə məhkəmə qərarını ləğv edərək, birinci və ya apellyasiya instansiyası məhkəməsində müəyyən edilmiş hallar və sübutlar əsasında yeni qərar qəbul etmək (o şərtlə ki, həmin qərar məhkum edilmiş şəxsin vəziyyətinin ağırlaşdırılması ilə nəticələnməsin).".

5. 519.1.2-1-ci maddəyə "ləğv edilməsi" sözlərindən sonra ", habelə məhkumun yaşayış yerini dəyişdirməsinə icazə verilməsi" sözləri əlavə edilsin.

6. 519.2.2-ci maddədə "və ya şərti olaraq vaxtından əvvəl azad etmənin" sözləri ", cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin və ya cəzanın çəkilməsinin təxirə salınmasının" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 29 iyun 2018-ci il.*
*N1205-VQD*

### ”İcra məmurları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 915-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

"İcra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 1, maddə 18; 2001, N 11, maddə 687, N 12, maddə 731; 2003, N 1, maddə 23; 2004, N 2, maddə 57, N 3, maddə 133; 2006, N 11, maddə 928; 2007, N 1, maddə 4, N 7,

maddə 712; 2010, N 7, maddə 591; 2011, N 6, maddə 477, N 7, maddə 584, N 12, maddə 1092; 2013, N 7, maddə 788; 2015, N 3, maddə 252; 2016, N 6, maddə 991) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci maddəyə "icrasını" sözündən sonra ", habelə probasiya nəzarətini" sözləri əlavə edilsin.

2. 5-ci maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 5. İcra və probasiya xidmətinin fəaliyyətinin təşkili

İcra məmurlarına həvalə olunmuş vəzifələrin həyata keçirilməsini müvafiq icra hakimiyyəti orqanı təmin edir.

Məhkəmələrin müəyyən olunmuş fəaliyyət qaydasının təmin edilməsi, habelə "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan icra sənədlərinin icrası üzrə icra məmurlarının fəaliyyəti icra xidmətini təşkil edir.

Bu Qanunun 6-cı maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, icra xidmətinə Azərbaycan Respublikasının Baş icra məmuru rəhbərlik edir.

Probasiya nəzarətinin həyata keçirilməsi, o cümlədən ictimai işlər növündə inzibati tənbehin icrası üzrə icra məmurlarının fəaliyyəti probasiya xidmətini təşkil edir.

Probasiya xidmətinə Azərbaycan Respublikasının Baş probasiya məmuru rəhbərlik edir.

İcra məmurlarının fəaliyyətinin əsasları Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi, İnzibati Xətalar Məcəlləsi, Mülki Prosessual Məcəllə, Cinayət-Prosessual Məcəllə, "İcra haqqında" Azərbaycan Respublikasının Qanunu və digər qanunvericilik aktları ilə müəyyən edilir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsində, Azərbaycan Respublikası Ali Məhkəməsində, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsində icra məmurları müvafiq olaraq Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri, Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri, digər məhkəmələrin icra məmurları müvafiq icra hakimiyyəti orqanı tərəfindən vəzifəyə təyin edilir və vəzifədən azad edilirlər.".

3. 6-cı maddə üzrə:

3.1. adında "xidmətinin" sözü "məmurlarının" sözü ilə əvəz edilsin;

3.2. mətninə "məmuru" sözündən sonra "və Azərbaycan Respublikasının Baş probasiya məmuru" sözləri əlavə edilsin və "xidmətinin" sözü "məmurlarının" sözü ilə əvəz edilsin.

4. 7-ci maddə üzrə:

4.1. birinci hissənin birinci abzasında və ikinci hissənin birinci abzasında "İcra məmuru" sözləri "İcra xidmətinin icra məmuru" sözləri ilə əvəz edilsin;

4.2. aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

"Probasiya xidmətinin icra məmuru Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi və İnzibati Xətalar Məcəlləsi ilə müəyyən edilən vəzifələrlə yanaşı aşağıdakı vəzifələri də yerinə yetirir:

icraata daxil olmuş sənədlərin vaxtında, tam və düzgün icra edilməsi üçün tədbirlər görür;

üzərində probasiya nəzarəti həyata keçirilən şəxslərə və onların nümayəndələrinə iş materialları ilə tanış olmağa, onlardan çıxarış etməyə və ya həmin sənədlərin surətini çıxarmağa imkan yaradır;

üzərində probasiya nəzarəti həyata keçirilən şəxslərin müraciətlərinə baxır və müvafiq tədbirlər görür;

probasiya xidməti və ya qurumunun rəhbərinin göstərişlərini yerinə yetirir.".

5. 8-ci maddə üzrə:

5.1. birinci hissənin birinci abzasında və ikinci hissənin birinci abzasında "İcra məmurunun" sözləri "İcra xidməti icra məmurunun" sözləri ilə əvəz edilsin;

5.2. üçüncü hissə aşağıdakı redaksiyada verilsin:

"Probasiya xidməti icra məmurunun Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi və İnzibati Xətalar Məcəlləsi ilə müəyyən edilən hüquqları ilə yanaşı aşağıdakı hüquqları da vardır:

fəaliyyət istiqamətlərinə uyğun olaraq dövlət qurumlarına, hüquqi və fiziki şəxslərə müraciət etmək, sorğular vermək, məlumat, arayış və izahatlar almaq;

üzərində probasiya nəzarəti həyata keçirilən, lakin olduğu yer müəyyən edilməyən şəxslərin axtarılması ilə əlaqədar onların yaşayış yerlərinə daxil olmaq, orada baxış keçirmək və gizlənə biləcəyi ehtimal olunan bütün saxlama yerlərini açmaq və baxmaq;

polis və təhlükəsizlik orqanlarının köməyindən istifadə etmək;

qanunla nəzərdə tutulmuş qaydada və hallarda fiziki güc, xüsusi vasitə və xidməti silah tətbiq etmək.".

6. 11-ci maddənin beşinci hissəsinin birinci cümləsinə "cəzaların" sözündən sonra ", habelə probasiya nəzarəti ilə əlaqədar tədbirlərin" sözləri əlavə edilsin və "icra qurumunun rəhbəri" sözləri "icra və probasiya qurumlarının rəhbərləri" sözləri ilə əvəz edilsin.

7. 12-ci maddə üzrə:

7.1. ikinci hissədə "İcra məmurlarının həvəsləndirilməsi" sözləri "İcra xidməti icra məmurlarının həvəsləndirilməsi" sözləri ilə əvəz edilsin və "icra məmurlarının xüsusi fondunu" sözlərindən əvvəl "icra xidməti" sözləri əlavə edilsin;

7.2. üçüncü hissəyə "icra məmurlarının" sözlərindən əvvəl "icra xidməti" sözləri əlavə edilsin.

8. 13-cü maddə üzrə:

8.1. adında və ikinci hissədə "İcra xidmətinin" sözləri "İcra və probasiya xidmətlərinin" sözləri ilə əvəz edilsin;

8.2. birinci hissəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Probasiya xidmətinin maliyyələşdirilməsi və maddi-texniki təminatı Azərbaycan Respublikasının dövlət büdcəsi hesabına həyata keçirilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 29 iyun 2018-ci il.*
*N 1207-VQD*

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 2 (I kitab), maddə 202, N 3, maddələr 397, 403, 429, N 4, maddələr 631, 647, 654, N 5, maddələr 835, 846, N 6, maddələr 997, 1010, N 7, maddələr 1247, 1249, N 10, maddə 1608, N 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, N 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, N 1, maddə 21, N 2, maddələr 139, 147, 152, 162, N 3, maddələr 331, 344, N 5, maddələr 698, 701, 734, 749, 754, N 6, maddələr 1020, 1033, 1036, N 7, maddələr 1273, 1296, 1297, 1299, N11, maddələr 1964, 1966, 1969, 1979, N12 (I kitab), maddə 2217; 2018, N1, maddə 19, N 2, maddələr 160, 162, 163, N 3, maddələr 383, 401, 404, N 4, maddə 646; Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1067-VQD nömrəli, 24 aprel tarixli 1073-VQD və 1075-VQD nömrəli, 1 may tarixli 1110-VQD, 1117-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 38.5-ci maddənin ikinci cümləsində "iki" sözü "bir" sözü ilə əvəz edilsin.

2. 38.6-cı maddədə "xəta haqqında elektron protokol" sözləri "tənbeh vermə haqqında elektron qərar və onun əlavəsi (foto və ya video materiallar)" sözləri ilə, "bir ay" sözləri "bir gün" sözləri ilə əvəz edilsin.

3. 45.2.1-ci maddədə "yaşayış yeri" sözlərindən sonra ", mobil telefon nömrəsi, elektron ünvanı (olduğu halda" sözləri əlavə edilsin.

4. 53.0.10-cu maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 53.0.11-ci maddə əlavə edilsin:

"53.0.11. bu Məcəllənin 122.1-ci maddəsində nəzərdə tutulmuş xəta haqqında elektron qərar real vaxt rejimində tərtib olunmadıqda.".

5. 81.3-cü maddədə "protokolda" sözündən sonra "(inzibati xəta haqqında iş üzrə qərarda)" sözləri əlavə edilsin.

6. 100.1.3-cü və 115.1.3-cü maddələrə "məlumat" sözündən sonra ", o cümlədən vətəndaşın fərdi identifikasiya nömrəsi" sözləri əlavə edilsin.

7. 122.1-ci maddə üzrə:

7.1. birinci cümlədə "330" rəqəmlərindən sonra ", 339.1-1" rəqəmləri əlavə edilsin və "xəta haqqında elektron protokol tərtib olunur" sözləri "tənbeh vermə haqqında elektron qərar çıxarılır" sözləri ilə əvəz edilsin;

7.2. ikinci cümlədə "İnzibati xəta haqqında elektron protokol tərtib edildikdən dərhal sonra" sözləri "Təsdiq edilmiş həmin qərar real vaxt rejimində"

sözləri ilə əvəz edilsin.

8. 122.2-ci maddədə "xəta haqqında elektron protokol" sözləri "tənbeh vermə haqqında elektron qərar" sözləri ilə əvəz edilsin, "istifadəsində" sözündən sonra ", yaxud dövlət qurumunun istifadəsində" sözləri və "mülkiyyətçisi" sözündən sonra "olan fiziki şəxs" sözləri əlavə edilsin.

9. 122.3-cü maddədə "xəta haqqında elektron protokolda bu Məcəllənin 100.1-ci" sözləri "tənbeh vermə haqqında elektron qərarda bu Məcəllənin 115.1-ci" sözləri ilə əvəz edilsin.

10. 122.3.2-ci maddə ləğv edilsin.

11. 122.4-cü maddədə "327.1-327.3 və 330-cu" sözləri "327.1-327.5, 328, 329.1, 329.2, 330 və 346.3-cü" sözləri ilə əvəz edilsin və "çatanadək" sözündən sonra "və hər bir halda inzibati xəta haqqında iş üzrə qərar barədə bu Məcəllənin 125.2-ci maddəsində nəzərdə tutulmuş qaydada məlumatlandırıldığı vaxtdan üç aydan az olmayan müddətdə" sözləri əlavə edilsin.

12. 122.5-ci maddənin ikinci cümləsində "protokol tərtib olunur" sözləri "qərar çıxarılır" sözləri ilə əvəz edilsin.

13. 122.6-cı maddə aşağıdakı redaksiyada verilsin:

"122.6. Barəsində bu Məcəllənin 122.1, 124.5 və ya 124.6-cı maddələrində nəzərdə tutulmuş qaydada inzibati tənbeh vermə haqqında qərar çıxarılmış şəxs bu Məcəllənin 125.2.1, 125.2.2 və ya 125.2.3-cü maddələrində müəyyən olunmuş qaydada məlumatlandırıldığı vaxtdan təyin olunmuş cəriməni ödəyə bilər.".

14. 122.7-ci maddə aşağıdakı redaksiyada verilsin:

"122.7. Barəsində bu Məcəllənin 122.1-ci, 124.5-ci və ya 124.6-cı maddələrində nəzərdə tutulmuş qaydada inzibati tənbeh vermə haqqında qərar çıxarılmış şəxs inzibati xətanın törədilməsi zamanı nəqliyyat vasitəsinin digər şəxsin sahibliyində və ya istifadəsində olması, yaxud digər şəxslərin qanunsuz əməlləri nəticəsində onun sahibliyindən çıxması ilə bağlı və ya digər səbəbdən qərarla razılaşmadığı hallarda həmin qərardan bu Məcəllənin 126.1-ci maddəsində nəzərdə tutulmuş qaydada yuxarı səlahiyyətli orqana (vəzifəli şəxsə) və ya məhkəməyə şikayət verə bilər. Şikayət verən şəxs inzibati xətanın törədilməsi zamanı nəqliyyat vasitəsini kimin idarə etdiyinə dair ehtimalını şikayətdə göstərə bilər. Şikayətdə göstərilən məlumatlar təsdiq olunarsa, inzibati tənbeh vermə haqqında qərar ləğv edilir və inzibati xətanı törətmiş şəxsin inzibati məsuliyyətə cəlb edilməsi üçün müvafiq tədbirlər görülür.".

15. 122.8-ci maddə aşağıdakı redaksiyada verilsin:

"122.8. İnzibati tənbeh vermə haqqında elektron qərardan şikayət vermiş şəxsin tələbi ilə ona həmin inzibati xətanın qeydə alınmasının texnologiyası əyani şəkildə göstərilməlidir.".

16. 123-cü maddə üzrə:

16.1. adında "hüquqi şəxsə" sözlərindən sonra "(dövlət qurumuna)" sözləri əlavə edilsin;

16.2. 123.1-ci maddədə "istifadəsində" sözündən sonra ", yaxud dövlət qurumunun istifadəsində" sözləri, "hüquqi şəxsə" sözlərindən sonra "(dövlət qurumuna)" sözləri əlavə edilsin;

16.3. 123.2-ci maddənin birinci cümləsində "Hüquqi şəxs" sözləri "Hüquqi şəxsin (dövlət qurumunun) müvafiq vəzifəli şəxsi" sözləri ilə, ikinci və üçüncü cümlələrində "xəta haqqında protokol" sözləri "tənbeh vermə haqqında qərar" sözləri ilə, üçüncü cümlədə "protokol" sözü "qərar" sözü ilə əvəz edilsin;

16.4. 123.3-cü maddənin:

16.4.1. birinci cümləsində "hüquqi şəxs" sözlərindən sonra ", yaxud dövlət qurumunun vəzifəli şəxsi" sözləri əlavə edilsin;

16.4.2. ikinci cümləsində "şəxsin" sözündən sonra ", yaxud dövlət qurumunun vəzifəli şəxsinin" sözləri əlavə edilsin.

17. 124.5-ci maddə üzrə:

17.1. birinci cümlədə "xəta haqqında protokol" sözləri "tənbeh vermə haqqında qərar" sözləri ilə əvəz edilsin;

17.2. ikinci cümlədə "xəta haqqında protokolda" sözləri "tənbeh vermə haqqında qərarda" sözləri ilə əvəz edilsin;

17.3. üçüncü cümlədə "Protokol" sözü "İnzibati tənbeh vermə haqqında qərar" sözləri ilə, "protokol" sözü "qərar" sözü ilə əvəz edilsin.

18. 124.6-cı maddə üzrə:

18.1. birinci cümlədə "xəta haqqında protokol" sözləri "tənbeh vermə haqqında qərar" sözləri ilə əvəz edilsin;

18.2. ikinci cümlədə "protokolun" sözü "qərarın" sözü ilə əvəz edilsin;

18.3. üçüncü cümlədə "Protokol" sözü "İnzibati tənbeh vermə haqqında qərar" sözləri ilə, "protokol" sözü "qərar" sözü ilə əvəz edilsin.

19. 125-ci maddə üzrə:

19.1. 125.2-ci maddədə "hüquqi şəxs" sözlərindən

sonra ", yaxud istifadəsində olan nəqliyyat vasitələri ilə əlaqədar dövlət qurumu" sözləri əlavə edilsin;

19.2. 125.2.1-ci maddədə "elektron protokolu" sözləri "protokolu" sözü ilə əvəz edilsin;

19.3. 125.2.2-ci maddəyə "nəqliyyat vasitəsi istifadəçisinin" sözlərindən sonra "elektron kabinetində olan" sözləri əlavə edilsin və "inzibati xəta haqqında elektron protokolun və ya" sözləri çıxarılsın;

19.4. 125.2.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"125.2.3. inzibati tənbeh vermə haqqında elektron qərar əlavə edilmiş materiallarla birlikdə müvafiq icra hakimiyyəti orqanının mərkəzi informasiya sistemi tərəfindən kağız daşıyıcıda çap olunaraq, bu Məcəllənin 57-ci maddəsində nəzərdə tutulmuş rəsmi qaydada verilməsi üçün 2 gün ərzində müvafiq icra hakimiyyəti orqanına göndərilir.";

19.5. 125.3-cü maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Müvafiq icra hakimiyyəti orqanının informasiya sistemi bu Məcəllənin 125.2.2-ci maddəsində nəzərdə tutulmuş SMS məlumatın nəqliyyat vasitəsinin istifadəçisinə çatdırıldığı vaxt barədə məlumatı müvafiq icra hakimiyyəti orqanının mərkəzi informasiya sisteminə göndərməlidir. SMS məlumatın nəqliyyat vasitəsinin istifadəçisinə çatdırıldığı vaxt barədə məlumat, həmçinin nəqliyyat vasitəsinin istifadəçisinin elektron kabinetinə yerləşdirilir və onun elektron ünvanına (olduğu halda) göndərilir.";

19.6. 125.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

"125.4. Foto və ya video qeydiyyat funksiyalarına malik xüsusi texniki vasitələrin köməyi ilə aşkar edilmiş inzibati xətalara görə çıxarılmış inzibati tənbeh vermə haqqında elektron qərarın bu Məcəllənin 57-ci maddəsində nəzərdə tutulmuş qaydada "Poçt haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş sifarişli poçt göndərişi vasitəsilə rəsmi çatdırılması barədə məlumatlar 1 gün müddətində müvafiq icra hakimiyyəti orqanı tərəfindən müvafiq icra hakimiyyəti orqanlarının informasiya sistemlərinə göndərilir.";

19.7. 125.5-ci maddədə "hüquqi şəxslər" sözlərindən sonra "(dövlət qurumları)" sözləri əlavə edilsin;

19.8. 125.7-ci maddədən ", yaxud bu Məcəllənin 353.2-ci maddəsində nəzərdə tutulan inzibati xəta" sözləri çıxarılsın;

19.9. 125.8-ci maddədən "xəta haqqında elektron protokol və ya inzibati" sözləri çıxarılsın.

20. 126.1-ci maddədə "125.2.3-cü maddəsində nəzərdə tutulmuş qaydada məlumatlandırıldığı və ya inzibati xəta haqqında protokol bu Məcəllənin 122.6 və 122.8-ci maddələrində nəzərdə tutulmuş qaydada inzibati tənbeh tətbiq etmə haqqında qərar hesab edildiyi vaxtdan 10" sözləri "125.2.2-ci maddəsində və ya 125.2.3-cü maddəsində (elektron kabinetdə mobil telefon nömrəsi olmadığı halda) müəyyən olunmuş qaydada məlumatlandırıldığı vaxtdan 20" sözləri ilə əvəz edilsin.

21. 127-1.1-ci maddənin birinci cümləsində "haqqında elektron protokol" sözləri və 127-2.1-ci maddənin birinci cümləsində "barədə elektron protokol" sözləri "ilə əlaqədar inzibati tənbeh vermə haqqında elektron qərar" sözləri ilə əvəz edilsin, 127-2.4-cü maddənin birinci cümləsində isə "elektron protokol tərtib edildikdən" sözləri "inzibati tənbeh vermə haqqında elektron qərar çıxarıldıqdan" sözləri ilə əvəz edilsin.

22. 127-1.2-ci maddədə "Elektron protokol" sözləri "İnzibati tənbeh vermə haqqında elektron qərar" sözləri ilə əvəz edilsin.

23. 127-1.3-cü maddədə "elektron protokolun" sözləri "inzibati tənbeh vermə haqqında elektron qərarın" sözləri ilə əvəz edilsin.

24. 130.1-ci maddədə "Qərarın" sözü "Bu Məcəllənin 126.1-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, qərarın" sözləri ilə əvəz edilsin.

25. 338.2-ci maddədə "Piyadalar" sözü "Bu Məcəllənin 338.2-1-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, piyadalar" sözləri ilə əvəz edilsin.

26. Aşağıdakı məzmunda 338.2-1-ci maddə əlavə edilsin:

"338.2-1. Hərəkət sürətinin həddi 80 km/saat və daha artıq müəyyən edilmiş yolda piyadanın yolun hərəkət hissəsini "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə piyadaların yolu keçməsi üçün müəyyən edilmiş yerlərdən kənar keçməsinə görə - qırx manat məbləğində cərimə edilir.".

27. 339-cu maddə üzrə:

27.1. 339.1-ci maddədən "və ya texniki baxışdan" sözləri çıxarılsın;

27.2. aşağıdakı məzmunda 339.1-1-ci maddə əlavə edilsin:

"339.1-1. Nəqliyyat vasitəsini "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş müddətdə texniki baxışdan

keçirmədən idarə etməyə görə - əlli manat məbləğində cərimə edilir.";

27.3. "Qeyd" hissəsində "maddəsində" sözü "və 339.1-1-ci maddələrində" sözləri ilə, "10" rəqəmləri "20" rəqəmləri ilə əvəz edilsin.

28. 347-ci maddəyə "istifadəsində" sözündən sonra ", yaxud dövlət qurumunun istifadəsində" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 29 iyun 2018-ci il*
*N1221-VQD*

## Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Seçki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 917-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, N 10, maddə 762, N 12, maddə 973; 2010, N 7, maddə 587; 2011, N 6, maddə 485, N 7, maddə 593; 2012, N 5, maddə 410; 2013, N 1, maddə 16, N 11, maddə 1267; 2016, N 1, maddə 12; 2017, N 4, maddə 522, N 5, maddə 752, N 11, maddə 1976; Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1065-VQD nömrəli və 1 may tarixli 1112-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 3.2-ci maddənin birinci və ikinci cümlələrində "XVIII" rəqəmlərindən sonra ", XVIII-I" rəqəmləri əlavə edilsin.

2. Aşağıdakı məzmunda XVIII-I fəsil əlavə edilsin:

**"XVIII-I FƏSİL**
**AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ DEPUTATININ MANDATDAN MƏHRUM EDİLMƏSİ HAQQINDA MƏRKƏZİ SEÇKİ KOMİSSİYASININ QƏRARININ MÜBAHİSƏLƏNDİRİLMƏSİNƏ DAİR İDDİA ÜZRƏ İCRAAT**

Maddə 130-1. Azərbaycan Respublikası Milli Məclisi deputatının mandatdan məhrum edilməsi haqqında Mərkəzi Seçki Komissiyasının qərarının mübahisələndirilməsinə dair iddia üzrə icraatın xüsusiyyətləri

130-1.1. Azərbaycan Respublikası Milli Məclisi deputatının mandatdan məhrum edilməsi haqqında Mərkəzi Seçki Komissiyasının qərarının mübahisələndirilməsinə dair iddia ərizəsi apellyasiya instansiyası məhkəməsinə həmin qərar rəsmi dərc edildiyi gündən 10 gün müddətində verilir.

130-1.2. Azərbaycan Respublikası Milli Məclisi deputatının mandatdan məhrum edilməsi haqqında Mərkəzi Seçki Komissiyasının qərarının mübahisələndirilməsinə dair iddia ərizəsinə məhkəmə tərəfindən 15 gün müddətində baxılmalı və onun mahiyyəti üzrə qərar qəbul edilməlidir.

130-1.3. Məhkəmə tərəfindən iddia ərizəsinə ərizəçinin və Mərkəzi Seçki Komissiyasının nümayəndəsinin iştirakı ilə baxılır. Məhkəmə iclasının vaxtı və yeri haqqında lazımi qaydada xəbərdar edilmiş göstərilən şəxslərin məhkəməyə gəlməməsi işə baxılmasına və onun həll edilməsinə mane olmur.

130-1.4. İş üzrə apellyasiya instansiyası məhkəməsinin qərarından həmin qərarın tam formada təqdim olunduğu gündən 10 gün müddətində Ali Məhkəməyə şikayət verilə bilər.

130-1.5. Ali Məhkəmə şikayətə onun daxil olduğu vaxtdan 15 gün müddətində baxıb qərar qəbul etməlidir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 29 iyun 2018-ci il.*
*N 1228-VQD*

### ”Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, N 5, maddə 413; 1999, N 5, maddə 284, N 7, maddə 396, N 10, maddə 570; 2001, N 5, maddə 292, N 6, maddə 379, N 7, maddə 455; 2002, N 1, maddə 4, N 12, maddə 706; 2003, N 6, maddə 278; 2004, N 2, maddə 57, N 3, maddə 133, N 4, maddə 199, N 8, maddələr 597, 598, N 9, maddə 669; 2005, N 1, maddə 7, N 8, maddə 686; 2006, N 1, maddə 4, N 12, maddə 1005; 2007, N 5, maddələr 439, 446, N 7, maddə 712, N 11, maddə 1078, N 12, maddə 1222; 2008, N 3, maddə 163, N 7, maddə 609; 2009, N 2, maddə 46, N 11, maddə 878; 2010, N 7, maddə 596, N 10, maddə 842; 2011, N 4, maddə 265; 2013, N 1, maddə 21; 2014, N 2, maddə 85, N 7, maddələr 782, 784; 2015, N 2, maddə 98, N 4, maddə 346, N 5, maddə 483, N 11, maddə 1286; 2016, N 6, maddə 1004, N 11, maddə 1789, N 12, maddə 2033; 2017, N 6, maddə 1034, N 7, maddə 1305, N 11, maddə 1965; 2018, N 1, maddə 12, N 3, maddə 395; Azərbaycan Respublikasının 2018-ci il 4 may tarixli 1123-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 113-cü maddənin ikinci hissəsinin 11-ci bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 12-ci bənd əlavə edilsin:

"12) "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş təkrar qiymətləndirmə nəticəsində hakimin (ilk dəfə hakim təyin edilmiş şəxslər istisna olmaqla) fəaliyyətində yenidən peşəkar çatışmazlıqlar aşkar edildikdə.".

2. 114-cü maddənin üçüncü hissəsində "6-11-ci" sözləri "6-12-ci" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 29 iyun 2018-ci il.*
*N 1230-VQD*

### ”Məhkəmə-Hüquq Şurası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, N 1, maddə 8, N 8, maddə 686; 2006, N 1, maddə 4; 2007, N 4,

maddə 321; 2010, N 7, maddə 596; 2011, N 2, maddə 71, N 6, maddə 484; 2012, N 12, maddə 1228; 2013, N 12, maddə 1467; 2014, N 7, maddə 783; 2015, N 2, maddə 99, N 4, maddə 347, N 11, maddə 1287; 2016, N 12, maddə 2032; 2017, N 6, maddə 1044, N 12, maddə 2188) 13-cü maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 13.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"13.1. İlk dəfə 3 il müddətinə təyin edilmiş hakimlərin fəaliyyəti həmin müddətin sonunda, digər hakimlərin fəaliyyəti isə beş ildə bir dəfədən az olmayaraq Məhkəmə-Hüquq Şurası tərəfindən qiymətləndirilir.".

2. Aşağıdakı məzmunda 13.3-1-ci maddə əlavə edilsin:

"13.3-1. Hakimin (ilk dəfə hakim təyin edilmiş şəxslər istisna olmaqla) fəaliyyətində peşəkar çatışmazlıqlar aşkar edildikdə, onun fəaliyyəti Məhkəmə-Hüquq Şurası tərəfindən müəyyən olunmuş vaxtda təkrarən, lakin 6 aydan tez və 2 ildən gec olmamaqla qiymətləndirilir. Təkrar qiymətləndirmə zamanı hakimin fəaliyyətində yenidən peşəkar çatışmazlıqlar aşkar edildikdə, onun səlahiyyətlərinə "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada vaxtından əvvəl xitam verilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 29 iyun 2018-ci il.*
*N 1231-VQD*

## Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 fevral tarixli 1855 nömrəli Fərmanının tətbiqi ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, N 4, maddə 323, N 12, maddə 1034; 2007, N 11, maddə 1105, N 12, maddə 1246; 2009, N 7, maddə 533, N 8, maddə 627, N 10, maddə 773, N 12, maddələr 983, 988; 2010, N 2, maddə 83, N 4, maddə 292, N 11, maddə 966; 2011, N 1, maddə 18, N 2, maddə 85, N 4, maddə 281, N 6, maddə 497, N 10, maddə 894, N 11, maddə 993; 2012, N 10, maddə 950; 2014, N 6, maddə 627, N 7, maddə 820, N 9, maddə 1029; 2016, N 1, maddə 77; 2017, N 2, maddə 184, N 10, maddə 1784; Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyun tarixli 115 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"nin 9.12-2-ci yarımbəndinə "qaydalarının" sözündən sonra ", həmçinin yoxlayıcı orqan (yoxlayıcı) tərəfindən (onlara münasibətdə yuxarı dövlət orqanının olmadığı hallarda) "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda yoxlamalarla əlaqədar müəyyən edilmiş digər tələblərin və prosedurların" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 13 iyul 2018-ci il.*
*N 194*